**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "MİLLİ İQTİSADİYYATIN İNFRASTRUKTURUNUN FORMALAŞMASI (QARABAĞ İQTİSADİ RAYONU TİMSALINDA)"

**mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**Məhərrəmzadə Könül Fərhad**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**“___” ____________ 2022-ci il**

# “MİLLİ İQTİSADİYYATIN İNFRASTRUKTURUNUN FORMALAŞMASI (QARABAĞ İQTİSADİ RAYONU TİMSALINDA)”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404 - İqtisadiyyat

**İxtisaslaşma:** İqtisadi nəzəriyyə

**Qrup:** 16


**Magistrant**
**Məhərrəmzadə Könül Fərhad qızı**
**____________________imza**

**Elmi rəhbər**
**i.e.d., prof. Babayev Əlican Pirican oğlu**
**____________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**____________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________ imza**


**BAKI – 2022**

## Elm andı

Mən, Məhərrəmzadə Könül Fərhad qızı and içirəm ki, “Milli iqtisadiyyatın infrastrukturunun formalaşması (Qarabağ iqtisadi rayonu timsalında)” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“MİLLİ İQTİSADİYYATIN İNFRASTRUKTURUNUN FORMALAŞMASI (QARABAĞ İQTİSADİ RAYONU TİMSALINDA)”**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Tədqiqatın aktuallığı regionlarda infrastrukturun inkişafi strategiyalarının hazırlanması, habelə vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi üzrə sosial proqramların həyata keçirilməsi üçün maddi baza təmin edən şərtlərlə müəyyən edilir.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi milli iqtisadiyyatda infrastrukturun formalaşması məsələlərini Qarabağ iqtisadi rayonu timsalında nəzərdən keçirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiyanın yazılması prosesində əsas anlayış və terminaloji sistemin analizi metodlarından, infrastruktur sahələrin inkişafi ilə bağlı normativ sənədlərin, informasiya mənbələrinin, elmi-nəzəri yanaşmaların, statistik məlumatların empirik təhlilindən, həmçinin ümumiləşdirmə və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işinin tədqiqində dərs vəsaitlərindən, internet resurslarından, mövzu ilə əlaqəli sahələrdə aparılmış elmi araşdırma və məqalələrdən, habelə Azərbaycan Respublikasının bu sahənin inkişafi və təkmilləşdirilməsi üzrə qəbul etdiyi normativ sənədlərdən və hökumətin təsdiq etdiyi qanunvericilik aktlarından istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Magistr işinin yazılması zamanı əsas məhdudiyyət qismən nəzəri materialların çatışmazlığı və informasıya bazalarının yetərsizliyi ilə bağlı olmuşdur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat zamanı aşağıdakı elmi nəticə əldə edilmişdir:**

**- Azərbaycan Respublikası hökumətinin iqtisadi siyasəti nəzərə alınmaqla sahənin infrastruktur təminatının nəzəri əsasları kompleks araşdırılmış;**
**- ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində infrastruktur siyasətinin əhəmiyyəti və onun işləkliyi araşdırılmış;**
**- infrastruktur sahələrinə xarici ölkələrin təcrübəsində investisiya yatırımları, onların necə stimullaşdırılması məsələləri öyrənilmiş;**
**- Qarabağ iqtisadi rayonunun inkişafina yardımçı olan infrastruktur institutlarının fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi istiqamətləri təklif edilmiş;**
**- İqtisadi inkişafa yardımçı olan institusional infrastrukturların fəaliyyət problemləri araşdırılmış və həlli yolları təklif edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Əldə olunmuş nəticələr infrastruktur sahələrinin inkişaf etdirilməsi, fəaliyyətlərin planlaşdırılması, Qarabağ regionunda infrastukturun inkişaf etdirilməsinin iqtisadiyyata təsiri imkanlarının artırılması istiqamətində faydalı ola bilər.**



**Açar sözlər: infrastruktur, region, sənaye, Qarabağ**

"FORMATION OF THE INFRASTRUCTURE OF THE NATIONAL ECONOMY (ON THE EXAMPLE OF THE KARABAKH ECONOMIC REGION)"

## SUMMARY

**The actuality of the subject: The relevance of the study is determined by the conditions that provide the material basis for the development of strategies for infrastructure development in the regions, as well as the implementation of social programs to improve the living standards of citizens.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to consider the formation of infrastructure in the national economy on the example of the Upper Karabakh economic region.**

**Used research methods: In the process of writing the dissertation, the basic concepts and methods of analysis of the terminological system, empirical analysis of normative documents, information sources, scientific-theoretical approaches, statistical data related to the development of infrastructure, as well as generalization and comparative analysis methods were used.**

**The information base of the research: Textbooks, internet resources, scientific researches and articles in the relevant fields, as well as normative documents adopted by the Republic of Azerbaijan on the development and improvement of this field and legislative acts approved by the government were used in the research of the dissertation.**

**Restrictions of research: The main limitation in writing the master's thesis was partly due to the lack of theoretical materials and insufficient databases.**

**The novelty and practical results of investigation: The following scientific results were obtained during the research:**

**- Taking into account the economic policy of the Government of the Republic of Azerbaijan, the theoretical foundations of the provision of infrastructure in the field have been comprehensively studied;**

**- The importance of infrastructure policy and its functioning in the modern stage of development of the country's economy has been studied;**

**- studied the issues of foreign investment in infrastructure, how to stimulate them;**

**- Directions for ensuring and improving the activities of infrastructure institutions that contribute to the development of the Upper Karabakh economic region were proposed;**

**- The problems of the functioning of institutional infrastructures that contribute to economic development have been studied and solutions have been proposed.**

**Scientific-practical significance of results: The results obtained can be useful in the development of infrastructure, planning activities, increasing the impact of infrastructure development in the Karabakh region on the economy.**

Keywords: infrastructure, region, industry, Karabakh

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**İKT** – İnformasiya Kommunikasiya Texnologiyaları

**SES** – Su Elektrik Stansiyası

MÜNDƏRİCAT

**GİRİŞ...............................................................................................8**
**I FƏSİL. REGİONLARDA İNFRASTRUKTUR SAHƏLƏRİNİN FORMA-LAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI.......................................12**
1.1. İnfrastruktur anlayışının mahiyyəti və milli iqtisadiyyatın inkişafinda onun əhəmiyyəti...............................................................................................12
1.2. Milli iqtisadiyyatın infrastrukturunun formalaşmasına və inkişafina təsir edən amillər...............................................................................................25
**II FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA İSTEHSAL VƏ SOSİAL İNFRASTRUKTURUN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ...........................................................................30**
2.1. Regionda istehsal infrastrukturunun inkişaf dinamikası və perspektivləri...............................................................................................30
2.2. Qarabağ iqtisadi rayonunda sosial infrastrukturun inkişafının xüsusiyyətləri...............................................................................................41
**III FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA İSTEHSAL VƏ SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ................49**
3.1. Qarabağda regional infrastrukturun perspektiv inkişaf istiqamətləri......49
3.2. Qarabağda istehsal və sosial infrastruktur sahələrinin yaradılması və inkişafi...............................................................................................54
**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................63**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI..................................67**
Cədvəllərin siyahısı.........................................................................74
Sxemlərin siyahısı.........................................................................74

## GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan iqtisadiyyatı hal-hazırda yeni bazar dəyişiklikləri mərhələsindədir. Ölkədə aparılan islahatlar əsasən vətəndaşların rifahının təmin edilməsinə yönəlib. Son illər Azərbaycan hökuməti mövcud imkanlardan hərtərəfli sosial-iqtisadi inkişafdan istifadə etmək üçün müəyyən addımlar atıb və bunun üçün iki əsas strateji istiqamət seçilib: yoxsulluğun azaldılması və regional inkişaf. İqtisadi inkişafin hazırkı mərhələsində bir sıra əhatəli siyasi sənədlər hazırlanmışdır ki, onların arasında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafi Dövlət Proqramı" xüsusi yer tutur. Proqramların icrası zamanı regionlar öz potensiallarını inkişaf etdirmiş, sahibkarlığın inkişafi istiqamətində vacib tədbirlər həyata keçirilmiş, sosial obyektlər və yeni istehsal müəssisələri yaradılmış, əhalinin rifahı daha da yaxşılaşdırılmışdır. Regional inkişafın problemi və onun həll edilməsi üçün dövlətin həyata keçirməli olduğu tədbirlərin ümumi yönləri, regional inkişaf nəzəriyyələri dövrümüzün əsas problemləri olduğundan bu mövzunun aktuallığını artırır. İnfrastruktur sənayesi ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, ölkə iqtisadiyyatının normal fəaliyyətinin səmərəli təşkilində mühüm rol oynayır. Tədqiqatda Azərbaycanın regional inkişafının vəziyyəti, xüsusən də infrastrukturun hazırkı vəziyyəti qiymətləndirilir. Regionlarda infrastrukturun inkişafının əsas istiqamətlərinə toxunulur və Azərbaycan hökumətinin bu sahədəki fəaliyyətinə mövcud proqramlara uyğun olaraq baxılır. Regionun sosial, sənaye və digər infrastrukturunun inkişafi əhalinin sosial-iqtisadi hüquqlarının müdafiəsi üçün əsasların yaradılmasına, sosial xidmətlərdən istifadənin təmin edilməsinə və saxlanılmasına imkan verir. İnfrastruktur, bir-biri ilə əlaqəli strukturlar və strukturlar kompleksi olmaqla sistemin, sənayenin və onun ayrı-ayrı müəssisələrinin fəaliyyəti üçün əsas təşkil edir və ya təmin edir. Başqa sözlə desək, infrastruktur müəyyən sənaye sahəsində müəssisələrin fəaliyyətinə, istehsal fəaliyyətinə və əmtəə dövriyyəsinə, habelə insanların həyatı üçün normal şəraitin yaradılmasına yönəlmiş bir-biri ilə əlaqəli strukturların məcmusudur. Bu, təkrar istehsal şəraitini və prosesini təmin edən qeyri-istehsal və istehsal sahələrinin tədbirlər toplusudur. İnfrastruktur

sahələrinin sənaye istehsalının təşkilində öz rolunu tam icra edə bilməməsi bu bölməyə diqqətin yüksəldilməsini, institusional infrastrukturun təkmilləşdirilməsini, irəliləyişə nail olmaq üçün investisiyaların stimullaşdırılmasını tələb edir. Hər sahədə olduğu kimi, bu sahədə də elmi araşdırmalar aparılmalı, infrastruktur problemləri müəyyən edilməli və sübuta əsaslanan həllər təklif edilməlidir. Tədqiqatın aktuallığı regionlarda infrastrukturun inkişafi strategiyalarının hazırlanması, habelə vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi üzrə sosial proqramların həyata keçirilməsi üçün maddi baza təmin edən şərtlərlə müəyyən edilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İnfrastrukturun inkişafi dövlətin bu sahədə apardığı iqtisadi siyasətdən, bu sahədə logistika səviyyəsindən asılıdır. İnfrastrukturun qeyri-qənaətbəxş vəziyyəti təbii ki, təchizatın keyfiyyətinə birbaşa mənfi təsir göstərir. İnfrastruktur xərclərinə qənaətin təmin edilməsi, keyfiyyət göstəricilərinin yüksəldilməsi bu işə elmi əsaslarla yanaşmağı tələb edir. Bu kimi suallar əsasında infrastrukturun əhəmiyyəti, təşkili formaları, innovasiyaların tətbiqi kimi məsələlər daim iqtisadçıların diqqət mərkəzindədir.

İnfrastruktur məsələləri ilə ətraflı məşğul olan, öz elmi əsərlərində bu sahənin araşdırılmasına yer verən, müvafiq tədqiqatlar aparan çoxsaylı yerli və xarici mütəxəssislər arasında bir neçəsinin adlarını sadalamaq olar, bunlar Cəbiyev R.M., Vəliyev T.S., Əliyeva A.Ə., Rəhmanov F.P., Əliyev Ş.T., Mustafayeva G. Ə., Simirnova O.A., Kuzmenko Y.Q., Kalinin V.V., Ramazanova D.R., Zimin A.İ., İvanova N.A., Xaxanov S.V., Pıxov P.A., Kaşina T.O. və digərləridir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyanın məqsədi milli iqtisadiyyatda infrastrukturun formalaşması məsələlərini Qarabağ iqtisadi rayonu timsalında nəzərdən keçirməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur.

- infrastrukturun mahiyyəti, formalaşma zərurəti, iqtisadi inkişafda rolu, onun inkişafını təmin edən amilləri müəyyən etmək;
- regionlarda istehsal və sosial infrastrukturun inkişaf meyllərini təhlil etmək, xarakterik xüsusiyyətlərini üzə çıxarmaq;

- Qarabağda regional infrastrukturun perspektiv inkişaf istiqamətlərini müəyyən etmək;
- Qarabağ iqtisadi rayonunda sosial və istehsal infrastrukturun inkişafının başlıca yönlərini tədqiq etmək;
- istehsal və sosial infrastrukturun inkişafinın təkmilləşdirilməsi ilə bağlı təkliflərlə çıxış etmək.

**Tədqiqatın obyekti və predmeti:** Qarabağ iqtisadi rayonunun infrastruktur təminatı tədqiqatın obyektini, infrastruktur təminatının yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər isə predmetini təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiyanın yazılması prosesində infrastruktur sahələrin inkişafi ilə bağlı normativ sənədlərin, informasiya mənbələrinin, əsas anlayış və terminaloji sistemin analizi, elmi-nəzəri yanaşmaların, təcrübi əhəmiyyətli biliklərin tətbiqinin təhlili metodlarından, habelə statistik məlumatların empirik təhlilindən, ümumiləşdirmə və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin məlumat bazasını müvafiq sahədə xarici ölkələrin və respublika iqtisadçı alimlərin əsərləri, aidiyyəti dövlət qurumlarının – Dövlər Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın rəsmi statistik göstəriciləri, ədəbiyyat siyahısında qeyd olunmuş mənbələr, dərsliklər, Azərbaycan Respublikasının tədqiqatın mövzusu ilə əlaqəli sahələrin inkişafi və təkmilləşdirilməsi üzrə qəbul etdiyi normativ sənədlər və hökumətin təsdiq etdiyi qanunvericilik aktları, habelə digər normativ aktlar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Aparılan tədqiqatda başlıca məhdudiyyət nəzəri baxımdan qismən ədəbiyyatın çatışmazlığı və informasıya bazalarına giriş əldə etmə çətinlikləri ilə bağlı olmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Əldə edilmiş nəticələrin elmi yeniliyi infrasturkur təminatının son zamanlarda müşahidə olunan müasir tendensiyalar konteksində xüsusiyyətlərinin müəyyən edilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, bu xüsusiyyətlər haqqında əsas nəzəri müddəalar işlənib hazırlanmış və

formalaşdırılmışdır. Bundan başqa, infrastruktur təminatının xüsusiyyətlərinin və inkişaf modellərinin gələcəkdə iqtisadi problemlərin həllinə təsir prespektivləri ilə bağlı baxışlar işlənib hazırlanmışdır. Xüsusilə, tədqiqat zamanı aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Azərbaycan Respublikası hökumətinin iqtisadi siyasəti nəzərə alınmaqla sahənin infrastruktur təminatının nəzəri əsasları kompleks araşdırılmış;
- ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində infrastruktur siyasətinin əhəmiyyəti və onun işləkliyi araşdırılmış;
- infrastruktur sahələrinə xarici ölkələrin təcrübəsində investisiya yatırımları, onların necə stimullaşdırılması məsələləri öyrənilmiş;
- Qarabağ iqtisadi rayonunun inkişafina yardımçı olan infrastruktur institutlarının fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi istiqamətləri təklif edilmiş;
- İqtisadi inkişafa yardımçı olan institusional infrastrukturların fəaliyyət problemləri araşdırılmış və həlli yolları təklif edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri:** Tədqiqatın praktiki əhəmiyyatı Qarabağ iqtisadi rayonunda istehsal və sosial infrastrukturun mövcud vəziyyətinin qiymətləndirilməsi və inkişafının əsas istiqamətlərinin təhlili ilə müəyyən olunur. Əldə olunmuş nəticələr infrastruktur sahələrinin, o cümlədən Qarabağ regionunda inkişaf etdirilməsinin, fəaliyyətlərin planlaşdırılmasının iqtisadiyyata təsiri imkanlarının yüksəldilməsi istiqamətində yararlı ola bilər.

# I FƏSİL. REGİONLARDA İNFRASTRUKTUR SAHƏLƏRİNİ FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI

## 1.1. İnfrastruktur anlayışının mahiyyəti və milli iqtisadiyyatın inkişafinda onun əhəmiyyəti

İnfrastruktur müəssisənin normal fəaliyyətinə xidmət edən bir-biri ilə əlaqəli struktur və qurğuların məcmusudur. "İnfrastruktur" termini biznesin demək olar ki, bütün sahələrinə aiddir. Nə etdiyimizdən və harada olmağımızdan asılı olmayaraq, bizi hər yerdə dəstəkləyir. İnfrastruktur (latınca infra - "aşağıda", və srtructura - "yer", "quruluş") - müəyyən bir sistemin fəaliyyəti üçün əsas təşkil edən və ya əsas verən və bir-biri ilə qarşılıqlı əlaqədə olan obyekt və ya strukturların bütöv kompleksidir. Praktikada sosial, bazar və istehsal infrastrukturları fərqləndirilir. İnfrastruktur anlayışı iqtisadi ədəbiyyatda keçən əsrin 40-cı illərində sənaye və kənd təsərrüfatı istehsalına xidmət edən iqtisadi sahələr kompleksində (yolların, kanalların, limanların, körpülərin, dənizlərin və hava limanlarının, anbarların, enerji obyektlərinin, dəmir yolu nəqliyyatının, rabitə, su təchizatı və kanalizasiya, ümumi və peşə təhsili, elm, səhiyyə və s.) təsərrüfat sahələrinin təyin edilməsi üçün istifadə olunmağa başlanılmışdır (Vəliyev T.S., Bakı – 2000: səh. 13).

İnfrastruktur sistemin, sənayenin və onun ayrı-ayrı müəssisələrinin fəaliyyətinin əsasını təşkil edən və ya əsasını təşkil edən bir-biri ilə əlaqəli struktur və obyektlərin məcmusudur. Başqa sözlə desək, infrastruktur müəyyən bir sənaye sahəsində müəssisələrin fəaliyyətinə, istehsal fəaliyyətinə və mal dövriyyəsinə, habelə insanların yaşayışı üçün normal şəraitin yaradılmasına yönəlmiş bir-biri ilə əlaqəli struktur və obyektlərin məcmusudur.

S.S.Nosovun fikrincə, infrastruktur "cəmiyyət üçün əlavə xərc" olmaqla, məhsul istehsalında iştirak etmədiyi üçün dəyər yaratmır və buna görə də istehsalçıya gəlir gətirmir (Носова С.С., КНОРУС, 2007. с. 792).

İnfrastruktur maddi istehsal sahələrinin fəaliyyəti və cəmiyyətin yaşayış şəraiti üçün zəruri olan obyektlərin, binaların, sistemlərin və xidmətlərin məcmusudur. Başqa bir yanaşmaya görə, infrastruktur ictimaiyyət üçün əlçatan

xidmətlərin (nəqliyyat və telekommunikasiya, elektrik enerjisi və su təchizatı daxil olmaqla) təmin edilməsi üçün istifadə olunan avadanlıqdır. Onlar müasir dövrdə iqtisadi fəaliyyətin digər növləri üçün zəruri zəmin yaradırlar.

İnfrastruktur xidmətləri adətən hökumət tərəfindən təmin edilir və ya tənzimlənir. İnfrastruktur iqtisadi və ya siyasi fəaliyyətin ümumi strukturunun tərkib hissəsi olmaqla, bütövlükdə iqtisadi və siyasi sistemin normal fəaliyyətini təmin etmək üçün tabe və köməkçi xarakter daşıyır. Sistemin fəaliyyətini və təkrar istehsalını təmin edən maddi-texniki təchizat və alətlərlə təmin edən infrastruktur müəssisələrin, maddi-istehsalat və qeyri-istehsal sahələrinin normal fəaliyyəti üçün zəruri olan sosial-iqtisadi funksiyaları yerinə yetirən əsas istehsal və kommunal müəssisələrin sistemidir. Öz növbəsində, infrastruktur maddi istehsal və qeyri-maddi istehsal və xidmətlərə bölünür. Beləliklə, infrastrukturu aşağıdakı formada təsnif etmək olar:

Sosial infrastruktur – bura fiziki obyektlər və cəmiyyətin sosial xidmətlərdən istifadə edə biləcəyi məkanlar daxildir. Bunlara səhiyyə ilə bağlı xidmətlər, təhsil və təlim, sosial mənzil proqramları, polis, məhkəmələr və digər ədalət və ictimai təhlükəsizlik müddəaları, habelə incəsənət, mədəniyyət, istirahət obyektləri və əhalini digər sosial əhəmiyyətli xidmətlərlə təmin edən obyektlər aid edilir.

İstehsal infrastrukturu bütövlükdə istehsala və təsərrüfatlara xidmət edən, onlar üçün ümumi əsas və dəstək yaradan fəaliyyət növləri və sahələrin məcmusudur. İstehsal infrastrukturu deyərkən, fərqli istehsal sahələrinin faydalı fəaliyyətinə xidmət göstərən, bu sahələrin xarici mühitindən ibarət nəqliyyat, enerji-yanacaq, su təchizatı, rabitə-informasiya, kanalizasiya, anbar təsərrüatı, topdansatış ticarət və başqa sahələrin cəmindən ibarət bütöv bir sistem başa düşülür.

Nəqliyyat infrastrukturu bütün nəqliyyat sektorlarının və daşımalarla məşğul olan müəssisələrin, habelə bu daşımaları təmin edən və onlara xidmət göstərən aqreqat və infrastruktur növlərindən biridir.

Mühəndislik infrastrukturu qurğu və binaların mühəndis-texniki təminatı sistemidir. Digər sözlə desək, istehlakçıların (əhali, kommunal xidmətlər, sənaye müəssisələri) normal həyatını təmin edən sistem-kommunikasiya kompleksidir.

Hərbi infrastruktur - ölkənin hərbi obyektlərinin yerləşdirilməsi, hazırlanması, istismarı və hərbi əməliyyatların aparılmasını təmin edən sistemdir.

Bazar infrastrukturu istehsal və sosial infrastrukturla müqayisədə yeni növ hesab olunur. Bazarın meydana gəlməsi onun sivil fəaliyyətini təmin edən yeni qurumların, təşkilatların yaranmasını zəruri edir. Bazar infrastrukturu deyərkən, xidmətlərin və məhsulların istehsalçılardan istehlakçılara ötürülməsi xidmətini göstərən, eyni zamanda kapital bazarı, əmtəə bazarı və başqa bazarların normal fəaliyyətini təmin edən təşkilat, idarə, kommersiya və dövlət müəssisələri və xidmətlərin cəmi nəzərdə tutulur. Bazar infrastrukturu məhsul və xidmətlərin hərəkətlərini, alqı-satqı əməliyyatlarını və ya bazara xidmət edən, onun normal formada fəaliyyətini təmin etmək üzrə müəyyən vəzifələri yerinə yetirən institutlar, xidmətlər, firmalar və s. məcmusudur (E.Kərimov, B.Osmanov, Bakı – 2020: səh. 170).

İnfrastruktur hərbi leksikondan götürülüb. Hərbi leksikonda infrastruktur dedikdə, hərbi qüvvələrin hərəkətini təmin edən arxa obyektlər kompleksi başa düşülür. Sovet iqtisadi ədəbiyyatlarında infrastruktur iki qrupa bölünürdü. Bunlar istehsal və sosial infrastrukturlardan ibarət idi. 1-inci qrupa bilavasitə maddi istehsala xidmət göstərən infrastruktur sahələri - avtomobil və dəmir yolu nəqliyyatı, su təchizatı, kanalizasiya, energetika və s. daxil edilirdi. 2-nci qrupa istehsal prosesi ilə dolayı bağlı olan sahələr - təhsil, səhiyyə, mədəniyyət, idman və s. sahələri əhatə edən infrastrukturlar daxildir. Yeni iqtisadi şəraitdə infrastrukturun xarakterik xüsusiyyətləri onların ikili xarakteri ilə izah olunur. Bir tərəfdən, bu sahələr inkişaf etmədən məhsul istehsal edən və əlavə dəyər yaradan sənaye və kənd təsərrüfatı müəssisələrinin mövcudluğu mümkün deyil. Elmi-texniki inqilab şəraitində istehsalın artım tempi və onun infrastruktur sahəsində səmərəliliyi müəyyən edilmişdir. Digər tərəfdən, bu sahələrin yaradılması və fəaliyyət göstərməsi bu sahələrə sərmayə qoyanlara xeyir gətirmir, əksinə, sənaye və kənd təsərrüfatı müəssisələrinin gəlirlərinin, xidmətlərin keyfiyyətinin və çeşidinin çoxaldılması üçün xidmət göstərir. Məhsuldar qüvvələr nə qədər inkişaf edərsə, bir o həcmdə çox kapital qoyuluşu tələb olunacaq. İnfrastrukturun bir sıra sahələri bazar iqtisadiyyatında rəqabətin obyektinə çevrilib. Məsələn, elm, təhsil, təlim, nəqliyyat,

ev təsərrüfatlarının elektrik enerjisi ilə təminatı və s. İstehsalın artması və rəqabətin qazanılması belə kapital qoyuluşlarından asılıdır. Qeyd etmək lazımdır ki, istehsalın ona xidmət göstərən təsərrüfat bölmələri ilə qarşılıqlı əlaqəsi problemləri infrastruktur termininin tətbiqindən xeyli əvvəl yaranmışdır (Vəliyev T.S., Bakı - 2000: səh. 59). Nəzərə alsaq ki, infrastrukturun əsas vəzifəsi istehsal müəssisələrinin fəaliyyətini və əhaliyə müxtəlif xidmətlərin göstərilməsini təmin etməkdir, onun daha geniş xarakter daşıdığını söyləmək mümkündür. "İnfrastruktur milli iqtisadiyyatın fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir və onun tərkib hissəsidir". Ölkə iqtisadiyyatının indiki inkişaf mərhələsində infrastrukturun iqtisadiyyatda rolu artır və onun təkmilləşdirilməsi istiqamətində böyük işlər görülür.

"İnfrastruktur" anlayışı öz inkişafinda bir neçə mərhələdən keçmişdir. I mərhələ 18-19-cu əsrlər iqtisadçılarının əsərlərində infrastrukturun iqtisadi mahiyyəti haqqında ilkin fikirləri əhatə edir. Belə ki, hələ 18-ci əsrdə A.Smit "bazarın görünməz əli" prinsipini əsaslandıraraq, dövlətə infrastruktur investoru funksiyasını (yəni, ictimai binaların və ictimai qurumların saxlanılması öhdəliyi) həvalə etmişdir (Смит А., 1962. с. 457). K.Marks "ümumi istehsal şəraiti", "ictimai istehsal prosesinin ümumi şərtləri", "istehsalın maddi şəraiti", "ümumi əmək vasitələri", "ümumi istehsal şəraiti" kimi iqtisadi kateqoriyalara malik infrastruktur obyektlərini müəyyən etmişdir (Пыхов П. А., Кашина Т. О. 2016.С. 39–46.). II mərhələ infrastrukturun cəmiyyətin əsas yükü kimi başa düşülməsidir. "İctimai kapital" termini infrastruktur anlayışının başa düşülməsində ən mühüm mərhələlərdən birinə çevrilmişdir. O, infrastrukturu müstəsna olaraq dövlət tərəfindən həyata keçirilən və özəl sektorun uğurlu inkişafi üçün zəmin yaradan iri kapital qoyuluşları kimi başa düşən P.Samuelsonun xalis ictimai sərvət konsepsiyasından yaranmışdır: onlar istehsal və ticarət üçün yolları təmizləyirlər (məsələn, yollar, suvarma sistemləri və s.) (Самуэльсон П., 2004: с. 472). A.Hirşman qeyd edirdi ki, infrastruktur elə xidmətlərdir ki, onlar olmadan ilkin, ikincili və üçüncü dərəcəli istehsal fəaliyyəti növləri fəaliyyət göstərə bilməz (Hirschman A. O. 2008. p. 75). III mərhələ iqtisadi artım və iqtisadi inkişaf nəzəriyyələrinin tətbiqində infrastrukturun nəzərdən keçirilməsi ilə bağlıdır. Bu mərhələnin ilkin mərhələsini R.Nurksenin (balanslaşdırılmış

böyümə nəzəriyyəsi), P.Rosenstein-Rodanın (böyük təkan nəzəriyyəsi), V.Rostovun (mərhələlər nəzəriyyəsi) əsərləri təşkil etmişdir ki, bu əsərlərdə ictimai məcmu kapitalı iqtisadi artımın əsas mənbələrindən biri hesab edilirdi. P.Rozenşteyn-Rodan infrastrukturda iqtisadiyyatın əsas sahələrində özəl kapitalın dövriyyəsinə xidmət etmək və onun gələcək inkişafi üçün əlverişli şərait yaratmaq üçün zəruri olan şərtlər toplusunu görürdü (Rosenstein-Rodan P. 2007. P. 202–211.). R.Nurske infrastrukturu iqtisadiyyatın "qan dövranı" və qismən də "sinir sistemi" ilə müqayisə edirdi. V.Rostov infrastrukturu artan əhalinin ehtiyaclarını səmərəli şəkildə ödəmək üçün zəruri alət kimi qiymətləndirdi. 1980-ci illərə qədər infrastruktur əsasən sosial kapital anlayışının bir hissəsi kimi qəbul edilmişdir. IV mərhələdə dövlətin infrastrukturun inkişafinda inhisarçılıqdan imtina etməsi fonunda bu konsepsiyanın transformasiyası baş vermişdir. İnternetin inkişafi fonunda qeyri-maddi infrastrukturun rolunun gücləndirilməsi, dövlət aktivlərinin, o cümlədən infrastruktur obyektlərinin özəlləşdirilməsi infrastruktur mülkiyyətinin idarə edilməsinin hibrid formasını - dövlət-özəl tərəfdaşlığını yaratdı. İnfrastruktur təsirlərinin ölçülməsi kəmiyyət təhlilindən kəmiyyət və keyfiyyət göstəricilərinin kombinasiyasına keçid aldı. İnfrastruktur maddi və qeyri-maddi obyektlərdən, bəzən isə yalnız qeyri-maddi obyektlərdən ibarət sistem kimi görünməyə başladı.

İlk növbədə, istehsal infrastrukturu müəyyən spesifik xüsusiyyətləri ilə seçilir:

- istehsal sahəsindən əldə edilən mənfəət milli gəlirin tərkib hissəsidir;
- istehsal infrastrukturu sayəsində məhsul keyfiyyətcə yeni formaya çevrilir;
- milli iqtisadiyyatın inkişafi üçün iqtisadiyyatın heç bir sahəsindən heç də az əhəmiyyət kəsb etmir;
- öz maddi-texniki bazası məkanında konkret yerləşdirilməsi ilə ifadə olunan ərazi prinsipinə uyğun olaraq inkişaf edir və fəaliyyət göstərir (Коваленко Е.Г., Питер, 2005: с. 168).

Qeyd edildiyi kimi, istehsal infrastrukturu ikili xarakter daşımaqla təkcə maddi istehsal sahəsində istehsal prosesinin normal gedişini təmin etməklə yanaşı, həm də insanın normal yaşayışını, xalq təsərrüfatında əmək ehtiyatlarının təkrar istehsalının təmin edilməsinə xidmət edir. Sosial infrastruktur əhalinin və

ümumilikdə ayrı-ayrı şəxslərin normal həyat fəaliyyətinin təmin edilməsi ilə əlaqədar xalq təsərrüfatının müvafiq bölmələrinin cəmidir. Milli iqtisadiyyatın mövcud inkişafi mərhələsində bu bölmənin-infrastrukturun rolu yüksəlməkdə davam etməkdədir. Onun başlıca vəzifəsi əmək kollektivlərinin, cəmiyyət üzvlərinin daha yüksək həyat səviyyəsi təklif etməkdir. Sosial infrastruktur iqtisadiyyatın başlıca resursları olan əmək ehtiyatlarının yenidən istehsalını təmino ilə milli iqtisadiyyata təsir edə bilər. Sosial infrastruktur milli iqtisadiyyatda aşağıdakı funksiyaları icra edir:

- elm sahəsinin inkişaf etdirilməsi;
- istehsal prosesi üçün vacib olan əmək məhsuldarlığının təminatı;
- müəssisə işçilərinin normal həyat şəraitinin təmin edilməsi;
- sağlamlığın yüksəldirlməsi;
- əmək qabiliyyətli əhalinin sayının artırılması;
- böyüməkdə olan nəslin formalaşması (Rəhmanov F.P., 2004: səh. 14).

Dünya iqtisadiyyatının sürətli inkişafi fonunda sosial infrastrukturun əhəmiyyəti getdikcə artır. Milli iqtisadiyyatın iqtisadi artım istiqamətinin əhalinin və işçi qüvvəsinin həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində dəyişməsi bu sahəyə investisiyaların artmasına səbəb olur. İnfrastrukturun inkişafının əsasında istehsal fəaliyyətinin ayrı-ayrı ixtisaslaşdırılmış əmək növlərinə bölünməsinə, daha dəqiq ictimai əmək bölgüsünə və buna görə də müəyyən əmək növlərinə tələbatın artması ilə əlaqədar infrastrukturun inkişafina səbəb olan maşın istehsalı üsulu dayanır. Beləliklə, istehsal infrastrukturu inkişaf edən sahə və fəaliyyət növünə çevrilir, yeni keyfiyyətlər qazanır. Belə sahələr nəqliyyat və rabitədir. Nəqliyyat sektorunun funksiyaları istehsal prosesi üçün zəruri olan hazır malların və əmək əşyalarının daşınması prosesini reallaşdırmaqdan ibarətdir. Müstəqil bölmə kimi formalaşmaqda olan bölmələrin biri də məlumatların ötürülməsi işini reallaşdıran rabitə sahəsidir. İctimai istehsalın nisbətən müstəqil sahəsi kimi infrastrukturun formalaşması prosesi ictimai əmək bölgüsündə böyük intervallarla müəyyən edilən bir sıra mərhələlərdən keçmişdir. Yuxarıda qeyd edildiyi kimi, fərdi sənətkarlığın kənd təsərrüfatından ayrılması və ya ictimai istehsalın ikinci əsas bölgüsü

məhsulların şəhər və kənd arasında bölüşdürülməsini sürətləndirmək üçün obyektiv zəmin yaratdı və bu da öz növbəsində infrastrukturun inkişafina səbəb oldu. Cəmiyyətdə üçüncü əsas əmək bölgüsü - ticarət və sənayenin kənd təsərrüfatından ayrılması iqtisadiyyata yeni sahələrin cəlb edilməsi hesabına ticarətin növbəti artımına səbəb oldu və bu da öz növbəsində infrastrukturun genişləndirilməsi zərurətini yaratdı. İstehsal infrastrukturu məsələlərinə nəzərdən keçirərkən nəzərə almaq vacibdir ki, o, məhsul istehsal etmir, ancaq onun istehsalı üçün lazım olan şəraiti yaradır. Sənayenin və iqtisadiyyatın və infrastruktur elementləri iqtisadiyyatın infrastrukturun üzərinə qoyulmuş spesifik funksiyalarının nəticəsidir. Qeyd olunan funksiyalar zamanla dəyişir və başlıca istehsal funksiyasından daha çox ayrılır. Buna görə də istehsal infrastrukturunun müəyyən edilməsində onun istehsalı təmin etmək funksiyası ilkin xüsusiyyət kimi götürülməlidir. İstehsal infrastrukturunda məlumatın daşınması, saxlanması və ötürülməsi prosesi formasını aldığı üçün məhsulların yığılması və ya saxlanılması mümkün deyil. İstehsal infrastrukturunu köməkçi və xüsusilə ikinci dərəcəli kimi xarakterizə etmək olmaz.

Ölkədə bazar iqtisadiyyatının qurulması milli iqtisadiyyatın, o cümlədən sənayenin və istehsal infrastrukturunun inkişafinda vacib rol oynayır. Bazar infrastrukturu və bazar strukturunun formalaşması milli iqtisadi siyasətin uğurunun əsas şərtlərindən biridir. Ayrı-ayrı alimlər tərəfindən bazar infrastrukturu kimi müxtəlif elementlər fərqləndirilir: marketinq xidmətləri, kompüter firmaları, audit və mühasibat firmaları, kredit və maliyyə xidmətləri və s. Bunlara ilk növbədə dövlət kredit sistemi, sığorta sistemi, bank sistemi, reklam agentlikləri, birjalar, ticarət müəssisələri daxildir (E.Kərimov, B.Osmanov, Bakı 2020, səh. 170).

Məlumdur ki, sənayenin infrastrukturuna nəqliyyat, qaz, rabitə, enerji və su təchizatı, kredit və maliyyə institutları daxildir. Nəqliyyat infrastrukturu iqtisadiyyatın bütün sahələrinin, habelə sənaye istehsalı müəssisələrinin normal fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş bütün növ nəqliyyat və nəqliyyat strukturlarının toplusudur. Nəqliyyat infrastrukturu insanın qeyri-təsərrüfat və iqtisadi fəaliyyətini təmin etmək üçün zəruri olan elementlər məcmusudur. Nəqliyyat infrastrukturunun əsas xüsusiyyəti iqtisadi əlaqələrin

genişlənməsi ilə bu sahənin tədricən inkişafidır. Nəqliyyat amili sənaye istehsalının yerləşməsinə təsir edən amillərdən biridir.

N.Baranskiq, A.Smit, N.Mironenko, M.Lomonosov, Q.Lappo və başqa məşhur iqtisadçı və coğrafiyaşünaslar öz əsərlərində ölkə iqtisadiyyatının və onun ayrı-ayrı sahələrinin inkişafinda nəqliyyat infrastrukturunun mühüm rolunu qeyd etmişlər Носова (Зимин А.И., 2013: с. 17). Onlar nəqliyyat infrastrukturunun istismarı vasitəsilə bir sıra funksiyaları yerinə yetirirlər ki, bunlardan da ən mühümü sənaye istehsalı obyektlərini vaxtında və lazımi miqdarda və keyfiyyətlə istehsal amilləri ilə təmin etməkdir. Daşınmanın əsas məqsədi zəruri məhsulu, yükü lazımi yerə, istehlakçıya və ya istehsal sahəsinə ən az xərclə və ən qısa müddətdə çatdırmaqdır. Nəqliyyat infrastrukturunun xidmətlərindən istifadə zamanı əsas məsələlərdən biri nəqliyyat növünün düzgün seçilməsidir.

Qeyd edildiyi kimi, istehsal infrastrukturunun 2-nci başlıca sahəsi informasiyadır. "İnformasiya infrastrukturu" təşkilati struktur, alt sistem olmaqla ölkənin sənaye müəssisələrinin informasiya sferasının fəaliyyətini və inkişafını, habelə kütləvi informasiya vasitələrinin ikitərəfli münasibətini təmin edir. İnformasiya infrastrukturuna informasiyanın toplanması, saxlanması, işlənməsi, arxivləşdirilməsini və ötürülməsi təmin edən informasiya mərkəzləri, alt sistemlər, məlumat və bilik bankları, rabitə sistemləri, idarəetmə mərkəzləri, aparat və proqram sistemləri daxildir. İnformasiya infrastrukturu artıq ötən əsrin 90-ci illərindən qlobal informasiya infrastrukturunun formalaşmasının əsasını qoyub. Qlobal informasiya infrastrukturu milli iqtisadiyyata, o cümlədən sənayeyə və ictimaiyyətə xidmət edən qlobal kommunikasiya şəbəkəsi kimi formalaşmağa başlayıb. İnformasiya infrastrukturu innovativ sahələri birləşdirərək istehsalçı və istehlakçıları təkcə bazarlarda deyil, həm də bilavasitə iş yerində, yolda, evdə belə zəruri məlumatlarla təmin edən mühüm mühitdir. İnnovasiya prosesinin inkişafi üçün zəmin yaradan və innovasiya fəaliyyətini reallaşdıran çoxsaylı bir-biri ilə əlaqəli strukturlar innovasiya infrastrukturunu təşkil edir. İnnovasiya infrastrukturu innovasiya fəaliyyətini informasiya, təşkilati-metodiki, maliyyə, maddi-texniki, məsləhət və digər amillərlə təmin edən innovasiya infrastrukturu subyektlərinin məcmusundan ibarətdir.

İnnovasiya infrastrukturu hər bir maddi və qeyri-maddi sənayenin xarakterik xüsusiyyətidir. Ötən əsrin sonlarından başlayaraq dünya iqtisadiyyatında, onun müxtəlif sahələrində, sənayedə, rabitədə və başqa maddi-istehsalat və sosial sahələrdə innovasiyalar tətbiq edilir. İnnovasiyaların tətbiqi, innovasiyanın yavaş-yavaş dərinləşməsi innovasiya infrastrukturunun formalaşmasına səbəb oldu. İnnovasiya infrastrukturu əhalinin rifah halının və iqtisadi inkişaf tempininin yüksəldilməsini və bu məqsədlə sənayeləşmənin dərinləşdirilməsini, müəssisələrində innovativ texnika və texnologiyaların geniş tətbiqini, yeni tələblərə cavab verən məhsulların istehsalını təcəssüm etdirir. İnnovasiya infrastrukturu, qeyd edildiyi kimi, bir çox mühüm elementləri özündə birləşdirir. Yeniliyə nail olmaq və onu istehsalata tətbiq etmək üçün bir sıra mühüm addımların atılması lazımdır.

İstehsal infrastrukturu ayrı-ayrı sənaye sahələrinin faydalı fəaliyyətinə xidmət edən və bu bölmələrin xarici mühitini özündə ehtiva edən nəqliyyat, yanacaq, rabitə, enerji, su təchizatı, kanalizasiya, anbar təsərrüfatı, topdansatış ticarəti və digər sahələrdən ibarət vahid sistemdir. İqtisadçılar infrastrukturun, o cümlədən istehsal infrastrukturunun xarakteri ilə bağlı fikir ayrılığına malikdirlər. Məhz buna görə də vahid iqtisadi kateqoriya kimi mülkiyyət münasibətlərinin dəyişdiyi və istehsal əlaqələrinin inkişaf etdiyi çağdaş bazar iqtisadiyyatı sistemində onun icra etdiyi funksiyalar nəzərdə saxlanılmaqla istehsal infrastrukturu və onun xüsusiyyətləri dəqiqləşdirilməlidir. İstehsal infrastrukturunun öyrənilməsində iki əsas aspekt nəzərə alınmalıdır. İlk olaraq, onun yenidən istehsal prosesində istehsalın inkişafina təsiri, ikinci olaraq isə istehsal infrastrukturunun özünün inkişafi və təkmilləşdirilməsində dövlətin tənzim edici rolunun artırılmasıdır. Məsələn, amerikalı iqtisadçı Pol Samuelson qeyd edib ki, dövlət investisiyalarının əsas hissəsi özəl sektorun uğurlu inkişafi üçün əlverişli şərait yaradır (Нордхаус В., Самуэльсон П., 1997, 860 с.). D.Sozaland və başqaları onu da qeyd edirlər ki, infrastruktur əmək bölgüsünü asanlaşdırmaqla, texnologiyanın yayılmasını və yeni təşkilati metodların tətbiqini və ya daha böyük bazarlara çıxışı, yeni resurslara və aralıq məhsullara çıxışı asanlaşdırmaqla məhsulun artmasına töhfə verir. Müxtəlif dövrlərdə müxtəlif tədqiqatçılar istehsal infrastrukturuna müxtəlif rakurslardan yanaşmış, onun

mahiyyəti və xüsusiyyətləri haqqında çoxlu fikirlər formalaşmışdır (Douglas Sutherland, Sonia Araujo, Balázs Égert, Tomasz Kozluk. 2009: s. 27).

Müasir qərb iqtisadçıları K.R. McConnell və L.Brew istehsal infrastrukturunun məqsədindən asılı olmayaraq dövlət tərəfindən təşkili və tənzimlənməsi ideyasını irəli sürdülər. Onlar iri kompleks layihələr tələb edən yanacaq-energetika kompleksi, su təchizatı, sənaye tullantılarının və yüklərin daşınması, bank xidmətləri, tikinti işləri və s. əmək tutumlu sahə olduğu üçün yalnız ixtisaslaşmış firmalar və ya dövlət tərəfindən yaradılmalıdır. Bəzi iqtisadçılar istehsal infrastrukturuna əhalinin tələbatını ödəyən istehsal və xidmətlərin məcmusu kimi yanaşırlar: yollar, anbarlar, nəqliyyat, kommunal, məişət xidməti və s. Bu yanaşma bir çoxları tərəfindən istehsal infrastrukturunu müxtəlif aspektlərdən əks etdirən iqtisadi kateqoriya kimi qəbul edilir (K. G. McConnell, S. L. Brew. 2000: 454 s.)

Eyni zamanda, rus iqtisadçısı E.Vlasov infrastrukturun məqsədini istehsal üçün ümumi şərait yaratmaqda və əsas istehsalın fəaliyyətini təmin etməkdə görür (Борисов Е. Ф., Березкина Т.Е., 2013: 272 с.).

Professor T.Vəliyev infrastrukturları istehsal, sosial, kommunal və bazar infrastrukturu kimi təsnif edib. Bu infrastrukturların özləri bilavasitə ikinci, bəzən isə üçüncü yarımqruplara, komponentlərə bölündüyündən o, bu qruplaşmanı infrastruktur sahəsində böyük təsnifat adlandırmışdır (Vəliyev T.S., Bakı, 2000. səh. 21). O, əvvəlcə istehsal infrastrukturunu müvafiq yarımqruplara və maddi istehsal sahələrinə ayırdı. O, bilavasitə müasir bölgü ilə maddi istehsal sahələrini aşağıdakı kimi təsnif etdi: tikinti, sənaye, kənd təsərrüfatı, istehsala xidmət edən rabitə, ovçuluq və balıqçılıq, meşə təsərrüfatı, yük nəqliyyatı, logistika, enerji iqtisadiyyatı, ticarət (istehsalın davam etdirilməsi ilə əlaqədar) və ictimai iaşə.

Fikrimizcə, bazar iqtisadiyyatı şəraitində infrastruktur bir-biri ilə əlaqəli müxtəlif bazar subyektləri - istehsal, sosial, institusional, maliyyə-kredit, ekoloji və informasiya, kommersiya sistemləri üçün ümumi şəraiti təmin edən sahələrin məcmusunu əhatə etməlidir. Eyni zamanda istehsal infrastrukturuna istehsal amillərinin qarşılıqlı təsiri, istehsalın xarakteri və xüsusiyyətləri, habelə müasir iqtisadi baxışlar əsasında aşağıdakı kimi yanaşmaq daha məqsədəuyğun

olardı:

Qeyd etdiyimiz kimi istehsal infrastrukturu müxtəlif sahələrə xidmət göstərən mərkəzlər məcmusudur. Bir əraziyə xidmət etməklə öz funksiyasını yerinə yetirir. İstehsal infrastrukturu əsasən kollektiv istehlakın xarakteri ilə bağlıdır. İstehsala xidmət edən infrastruktur və ya onun yardım etdiyi hər hansı digər sahə həmin prosesə birbaşa təsir göstərsə də, adətən orada texnoloji və digər müvafiq proseslərdən kənarda olur. İstehsal infrastrukturu özünəməxsus xüsusiyyətlərinə görə digər sosial-iqtisadi sahələrdən fərqlənir. Beləliklə, onun əsas xüsusiyyətlərindən biri fərdin deyil, kollektivin və cəmiyyətin ehtiyaclarına xidmət etməkdir. Əsasən iqtisadiyyatın vacib sahələri olan kənd təsərrüfatı və sənaye istehsalını əhatə edir. Nəzəri və iqtisadi baxımdan istehsal, bazar və sosial infrastrukturları bir-birindən fərqlənir. Ölkənin istehsal infrastrukturunun maddi infrastrukturuna bilavasitə aid olan sahələr: nəqliyyatın bütün növləri və bütün nəqliyyat vasitələri (dəmir yolu stansiyaları, anbarlar, neft və qaz kəmərlərinin fasiləsiz istismarı üçün qurğular, dəniz və çay limanları və s.), enerji sistemlərini təşkil edən elektrik xətləri, müxtəlif miqyaslı, təbii sərvətlərdən səmərəli istifadəni təmin edən, məhsul istehsalında bilavasitə istifadə olunmayan, lakin istehsalın normal fəaliyyəti üçün zəruri olan məlumatların, qurğu və avadanlıqların ötürülməsi və emalı üçün qarşılıqlı əlaqə vasitələrinin məcmusu, habelə mexaniki təchizat sistemləri kimi rabitə, su təchizatı, mühəndislik, kanallar, limanlar, avtomatik idarəetmə sistemləri, anbarlar və s. aiddir. İstehsal infrastrukturunun obyektləri və qurğuları onların xalq təsərrüfatında bolluğu bütövlükdə istehsalın səmərəliliyini müəyyən edir (Коваленко Е.Г., Питер, 2005: с. 169).

Bütövlükdə infrastrukturun mahiyyəti barədə deyilənlər bazar iqtisadiyyatının müstəqil strukturu kimi çıxış edən bazar infrastrukturu anlayışına da aiddir. Beləliklə, infrastruktur dedikdə, bazar sisteminə xidmət göstərən və onun fəaliyyətdə olması üçün lazımi şərait yaradan iqtisadiyyatın ümumi strukturunun tərkib hissəsi kimi anlaşılır. İnkişaf etmiş bazarın sistemi çox qarışıq struktura malikdir.

Müasir bazar iqtisadi münasibətlərində bazarın ən önəmli strukturlarından biri

də onun obyektlərinin iqtisadi təyinatına görə fərqləndirilməsinin nəticəsi kimi yaranır və bunları əhatə edir: elmi-texniki yeniliklər bazarı, əmək bazarı, istehlak malları bazarı. Bazar iqtisadiyyatının hökm sürdüyü bir şəraitində bu bazarların hər birinin ayrı-ayrılıqda normal fəaliyyət göstərməsi, habelə onların faydalı qarşılıqlı əlaqəsi inkişaf etmiş bazar infrastrukturu şəraitində mümkündür. Bununla belə, bazar infrastrukturu bazarın fərqli formalarının fəaliyyət göstərməsindən ötrü zəruri iqtisadi mühitin formalaşdırılmasına xidmət göstərir və nəticə etibarıyla bütövlükdə bazar iqtisadiyyatı sisteminin normal fəaliyyəti göstərməsini təmin edilir (Иншаков О.В., 2009: с. 28-37).

Bazar infrastrukturunun ən mühüm komponentləri əmtəə, fond, valyuta və əmək birjaları, lizinq şirkətləri, banklar, hərraclar, yarmarkalar və s. təşkil edirlər. İstehsal infrastrukturunun bəzi sahələri bilavasitə maddi nemətlərin istehsalı ilə məşğul olmasa da, cəmiyyətin istehsal sferasını iqtisadi baxımdan tamamlayaraq iri sənaye komplekslərinin inkişafina xidmət edir. Mikro səviyyədə qeyd eləmək vacibdir ki, istehsal infrastrukturu müəssisə və firmaların xarici mühitidir.

İstehsal prosesinə təsirin xarakterinə görə ətraf mühit amillərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- İstehsal prosesinin fasiləsiz fəaliyyətini təmin edən amillər, o cümlədən məhsula münasibət, məlumatların toplanması, ötürülməsi, toplanması və emalı, texnoloji və idarəetmə məsləhətləri və s. daxildir.
- "İşçi qüvvəsinin təkrar istehsalı amilləri": bura fəhlə və qulluqçuların sağlamlığının qorunması, onların ümumi təhsili və təlimi, istirahətinin təşkili və s. məsələlər aiddir.
- İqtisadi inkişafda ekoloji amillər.

Tədqiqatlardan aydın olur ki, M.P.Komorov istehsalat infrastrukturunun əsas xüsusiyyətlərini nəzərdən keçirərkən onu müxtəlif əlamətlərə görə aşağıdakı kimi təsnif etməyə çalışmışdır (Комаров М.П. 2010: 346 с.).

- insan fəaliyyəti sferasına görə;
- Fəaliyyət sahələrinə (funksiyalarına) görə;
- Tətbiq miqyasına görə;

- Ətrafdakı formalaşmanın xüsusiyyətlərinə görə.

Fikrimizcə, infrastrukturlar daha geniş mənada insanları həyatı boyu əhatə edən bütün sahələrdə və sferalarda fəaliyyət göstərir. İstehsal infrastrukturu da öz-özlüyündə istehsalı formalaşdıran məhsulları istehsal edən və istehlak malları istehsal edən sənaye sektorlarının infrastrukturuna ayrılmalıdır. Kənd təsərrüfatı və sənaye məhsullarının istehsalında əmtəə ehtiyatlarının hərəkət etməsini təmin edən maddi-texniki sistemlərin cəmi kimi anlaşılmalıdır. Əmtəə ehtiyatlarının təsnifatına müvafiq istehsal infrastrukturunun funksiyaları bu cür qruplaşdırılmalıdır - hazır məhsul, istehsal prosesinin maddi ehtiyatları, enerji, təbii ehtiyatlar; istehsalın əmək ehtiyatları və ya işçi qüvvəsi, informasiya və istehsalı maliyyə resurslarıyla təmin etmək. Belə ki, xidmət etdikləri sahələrdən və icra etdiyi funksiyalardan asılı olaraq istehsal infrastrukturu daxili, xarici və qarışıq olur. Bu funksiyalar öz növbəsində istehsal prosesini həyata keçirilmək üçün böyük əhəmiyyət daşıyır.

İstehsal infrastrukturunun təsnifatı ictimai həyatın inkişafi və idarə edilməsinə və istehsal infrastrukturunun ayrı-ayrı sahələrinin inkişafina sistemli iqtisadi yanaşmaların tətbiqinə kömək edir.

İdarəetmə üsuluna görə təsnifləşdirildikdə, istehsal infrastrukturları ayrı-ayrı iqtisadi sistemin xüsusiyyətlərinə görə idarə olunması ilə bir-birindən fərqlənir. Belə ki, əvvəllər istehsal infrastrukturu inzibati-amirlik üsulu ilə dövlətin inhisarında idisə, indi idarəetmənin bazar formasına müvafiq şəkildə idarəetmə üsulu tətbiq olunur.

## 1.2. Milli iqtisadiyyatın infrastrukturunun formalaşmasına və inkişafina təsir edən amillər

İstehsalın aramsız fəaliyyətini təmin etmək üçün infrastrukturun hər bir bölməsi normal fəaliyyətdə olmalıdır. İqtisadi-sosial həyatda infrastrukturun lazım olan səviyyədə olmaması onun xidmət etdiyi başlıca istehsal bölməsinin geri qalması ilə nəticələ bilər. İnfrastrukturun normal fəaliyyət göstərməsi bir yandan məhsuldar qüvvələrin inkişafina, digər yandan ümumi daxili məhsulun yüksəlməsinə, təkrar istehsalın böyüməsinə təkan verən başlıca amillərdən biridir. Buna görə də infrastrukturun ahəngdar və normal fəaliyyətini təmin etmək, normal və inkişaf etmiş infrastrukturun təşkil olunması zəruridir.

Ölkənin neft sənayesinə xidmət göstərən istehsal infrastrukturu xarici investisiyalar və qabaqcıl texnologiyaların tətbiqi hesabına nisbətən inkişaf etmiş, aqrar sahədə mövcud istehsal infrastrukturu maliyyə resurslarının çatışmazlığı səbəbindən ləngimişdir. Bu istiqamətdə investisiyaların cəlb edilməsi aktual məsələlərdəndir.

İnfrastrukturdan danışarkən qeyd etmək lazımdır ki, infrastrukturun hər bir sahəsinin öz komponentləri var. Bu elementlər onun aid olduğu infrastrukturun mahiyyətini daha da açmağa imkan verir. İnfrastrukturun iqtisadi inkişafinda müstəsna paya malik istehsal infrastrukturuna topdansatış ticarəti, istehsal infrastrukturuna xidmət edən tikinti obyektləri, elektrik enerjisi və elm istehsalı daxildir. Topdansatış çoxalmanın son mərhələsini başa vuraraq istehsala şərait yaradır. Beləliklə, alınan dəyər xammal və materialların alınmasına, əmək, elektrik enerjisi, kommunal və digər istehsal xərclərinin saxlanmasına sərf olunur ki, onlarsız istehsalı təsəvvür etmək mümkün deyil. Lakin pərakəndə satış topdan ticarətin ardı olsa da, istehsala xidmət göstərmir. Bu və ya digər formada istehlakçıların tələbatının ödənilməsinə xidmət göstərir. Məhz buna görə də pərakəndə ticarət sosial infrastruktura, "topdansatış" isə istehsal infrastrukturuna aiddir (Иншаков О.В., 2009: с. 28-37).

İnfrastruktur təsadüfən yaranmayıb, o, cəmiyyətin yüksələn tələbatına müvafiq olaraq obyektiv şəkildə formalaşıb. Tarixən sosial inkişaf formasiyaları bir-

birini əvəz etdiyi kimi, infrastrukturlar da sadədən mürəkkəbə doğru yüksəlmiş, struktur tədricən dəyişərək zənginləşmişdir. İqtisadi tərəqqinin yüksək səviyyəsinə baxmayaraq, infrastruktur özünəməxsusluğu ilə təkmilləşməyə davam edir. Tələbin yüksəlməsinə müxtəlif amillər təsir göstərir: elm və texnikanın inkişafi, sivilizasiyanın səviyyəsi, ailə gəlirlərinin artması, sahibkarlıq meylləri və dövlətin qarşısında duran yeni vəzifələr. Məsələn, bir neçə il əvvəl fərdi kompüterlər, elektron saatlar, videomaqnitofonlar və s. heç ağlımıza belə gəlmirdi. İndi onlara böyük tələbat mövcuddur. Deməк, ehtiyac tükənməz, tələb isə saysız-hesabsızdır. Lakin təəssüf ki, qarşıdan gələn tələbləri ödəmək üçün tələb olunan istehsal resursları (materiallar, xammal və ya torpaq, kapital, sahibkarlıq və əmək qabiliyyəti) məhduddur. Yəqin ki, daim artan tələbat və məhdud iqtisadi resurslar və onların tükənməsi şəraitində iqtisadiyyatın qarşısında çətin vəzifələr durur. İnfrastruktur sosial-iqtisadi tələbatın artması prosesi ilə bağlıdır və daim maraqlar problemi ilə üzləşir. Ona görə də maraqlara müəyyən təsnifatla səciyyələnən konkret tələb forması kimi yanaşmaq lazımdır. Artan sosial-iqtisadi ehtiyaclara uyğun olaraq maraqların fərdi, kollektiv, ümumi və xüsusi qruplara təsnif edilməsi vacibdir. Maraq qrupları arasında üzvi birlik prinsipi və daxili münasibətlərin daimiliyi və davamlılığı prinsipi mövcuddur. Xidmət müəssisələrinin əsas istehsalın tələbatını ödəmək qabiliyyəti istehsal xidmətlərinə tələbi müəyyən edir. İstehsal xidmətlərinə tələb maddi istehsal sahələrinin gəlir səviyyəsindən asılıdır; istifadə olunan istehsal xidmətlərinin bir-birini əvəz etməsində; maddi nemətlər istehsal edən müəssisələrin sayı; yeniliyin tətbiqindən asılıdır (Mustafayeva G. Ə., Bakı 2018, səh. 271-272).

Ölkə iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsi təkcə maddi istehsalın inkişaf səviyyəsindən deyil, həm də onların yardımçı istehsalata olan tələbatının ödənilməsindən asılıdır. Göründüyü kimi, istehsal xidmətlərinin inkişafi ölkədə maddi istehsalın inkişafindan vacib dərəcədə asılıdır. Bazar iqtisadi sisteminə keçid zamanı böhran, büdcə kəsiri, istehlak bazarında tarazlığın pozulması zamanı pullu xidmətlər bazarının əhəmiyyətli şəkildə təzədən qurulması vacib əhəmiyyət kəsb edir. Bundan əlavə, ictimai istehsalın səmərəliliyinin artırılmasında, insanların mənəvi və maddi ehtiyaclarının ödənilməsində xidmət sferasının rolu artır. İstehsal

xidmətləri sahəsi ictimai istehsalın səmərəliliyinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi və iş vaxtı itkisinin minumuma endirilməsi ilə bilavasitə bağlıdır (Коваленко Е.Г., Питер, 2005, с. 165).

Qeyd etmək lazımdır ki, infrastrukturun fəaliyyəti iqtisadi sistemin xarakterindən asılı olmayaraq obyektiv zərurətdən yaranır və cəmiyyətin ümumi tərəqqisində, iqtisadi-sosial proseslərin dinamik inkişafinda mühüm rol oynayır. Lakin sosialist iqtisadi sistemində infrastruktur institutları əsasən dövlətə məxsus idisə, bazar ölkələrində bu qurumlar ayrı-ayrı mülkiyyət münasibətlərinə müvafiq fəaliyyət göstərirdi. Belə ki, bazar iqtisadiyyatının hökm sürdüyü ölkələrdə dövlət mülkiyyəti ilə bərabər, ayrı-ayrı xüsusi mülkiyyət formaları (səhmdar cəmiyyətlər, bələdiyyələr) böyük üstünlük təşkil edir. Bu, daha çox sahibkarlığın inkişafi ilə bağlıdır. Konkret mülkiyyət forması çərçivəsində fəaliyyət göstərən infrastruktur obyektləri hazırkı sistemin iqtisadi-sosial münasibətlər kompleksinə qoşularaq bu kompleksdə öz yerlərini müəyyən edir. Zaman keçdikcə bütövlükdə mövcud təsərrüfat sistemində öz yerini möhkəmləndirən infrastrukturlar nəinki xidmət etdikləri ərazilərin normal fəaliyyətini təmin edir, əksinə, onlarsız təkrar istehsal prosesi çox faydasız olur və müəyyən qurumların fəaliyyəti qeyri-mümkün olur. İnfrastrukturun ən mühüm xüsusiyyətlərindən biri onların fəaliyyətinin funksional olmasıdır. İnfrastrukturun funksional fəaliyyət dairəsi çoxşaxəli və geniş olmaqla bərabər, eyni zamanda dinamikdir. Bundan əlavə, əgər infrastrukturun fəaliyyətində səmərəli nəticələr yoxdursa, o zaman bunu cəmiyyətin tərəqqi etməsi üçün xarakterik saymaq olmaz. Beləliklə, sivilizasiyanın müxtəlif mərhələlərində infrastrukturların fəaliyyəti son nəticədə faydalılığın, səmərəliliyin, sosial-iqtisadi dəyərin yüksəlməsi və ümumilikdə sivilizasiyanın tərəqqisinə səbəb olmalıdır. Cəmiyyətin inkişaf səviyyəsinə daim uyğunlaşma və tərəqqiyə meyl infrastrukturun funksional fəaliyyətinin mühüm aspektlərindən biridir. İstehsal infrastrukturunun inkişafina təsir edən birinci və ən mühüm amil investisiyadır. Ölkənin iqtisadi inkişaf səviyyəsi investisiyaya ayrılan vəsaitlərin payı ilə müəyyən edilir. İnvestisiya çox olan ölkələrdə iqtisadi inkişaf səviyyəsi yüksək, sərmayəsi az olan ölkələrdə isə aşağıdır. İnzibati amirlik sistemi dövründə bu prosesdən tamamilə kənarda qalan

Azərbaycanda iqtisadi münasibətləri inkişaf etdirmək üçün dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq üçün köklü dəyişikliklər etmək lazımdır. Bu məqsədlə ölkənin əsas məqsədi daxili və xarici bazarlarda sənayenin faydalılığı və rəqabət qabiliyyətini artırmaq və artımını təmin etməkdir. Bunun üçün başqa sahələrlə bərabər, normal şəkildə inkişaf etmiş istehsal infrastrukturunun sahəsinin yaradılması vacibdir. Belə məsələlərin həlli uzunmüddətlidir və böyük investisiyalar tələb edir. Ölkədə istehsalın və xidmətlərin inkişafina təsir göstərən əsas amillər təbii-coğrafi, texniki-texnoloji, siyasi-hüquqi, sosial-mədəni və iqtisadi amillərdir. Bu amillərin spesifik birləşməsi ölkədə istehsal və xidmət sahələrinin inkişafının xüsusiyyətlərini müəyyənləşdirir və bu sahələrə daxil olan halqaların təşkili formalarının və onların yerinə yetirdiyi funksiyaların həyata keçirilməsi üsullarının müxtəlifliyinə təsir göstərir. İstehsal xidmətlərinin strukturunu müəyyən edən mühüm amillərdən biri təbii amillərdir. Məhz bu amil tez-tez bir ölkədə və ya ölkənin müəyyən bir bölgəsində istehsal xidmətlərinin hansı sahəsinin inkişaf etdirilməsinə üstünlük verildiyini müəyyən etməyə böyük təsir edir. Məs., ölkədə çayların mövcudluğu çay nəqliyyatının, dənizin olması dəniz nəqliyyatının inkişafını şərtləndirir. Azərbaycanda çay nəqliyyatı xaric olmaqla, dəmir yolu, avtomobil, dəniz, hava və boru kəməri nəqliyyatı nisbətən inkişaf etmişdir.

Ölkədə iqtisadiyyatın səmərəli inkişafını təmin etməkdən ötrü inkişaf etmiş nəqliyyat sistemi, enerji kompleksi, sənaye və kənd təsərrüfatının satış sistemi və s. mövcuddur. İstehsalın və xidmətlərin inkişafina təbii-coğrafi amillərlə yanaşı, iqtisadi faktorlar də təsir edir. Beləliklə, maddi istehsal sahəsindəki meyllər istehsal və xidmət sahəsində öz əksini tapır. Maddi istehsal sferasının iqtisadi vəziyyəti istehsala və xidmətlərə olan tələbatı müəyyən edir. Texniki və texnoloji faktorların təsir etməsi ölkədə biznesin inkişafinda mühüm rol oynayan istehsal xidmətlərinin keyfiyyətinə mühüm təsir göstərir. Təhlillər göstərir ki, istehsal və xidmət sahələrinin əsas fondlarının əksəriyyəti köhnəlib və yenidən qurulmalıdır. İstehsal xidmətlərinin texniki-texnoloji bazasının istehsal xidmətlərinin keyfiyyətini təmin etməməsi, maddi istehsal sahəsində müəssisələrin tələbatını ödəməməsi onların vəziyyətinə mənfı təsir edir. Ölkədə istehsal və xidmət bölmələrinin texniki-iqtisadi

vəziyyətinin təkmilləşdirilməsi bu sahədə sahibkarlığın və rəqabət mühitinin inkişafina yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi ilə mümkündür (Cəbiyev R.M., Bakı, 2000. səh. 254).

Siyasi və hüquqi amillər iqtisadi sistemin xarici mühitini müəyyənləşdirir. Belə ki, yaxın illərdə dövlət satınalmalarının azalması istehsalın azalmasına səbəb olub. İlkin və ikinci dərəcəli istehsalın bir-biri ilə sıx əlaqəli inkişafını nəzərə alaraq, istehsal xidmətlərinin və maddi istehsal sahələrinin sinxron inkişafının təmin edilməsi məqsədəuyğundur. Bu baxımdan ölkədə inkişaf üçün istehsal və institusional infrastrukturun yaradılması vacibdir. Bu baxımdan investisiyaların bu sahələrə yönəldilməsi zəruridir.

# II FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA İSTEHSAL VƏ SOSİAL İNFRASTRUKTURUN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Regionda istehsal infrastrukturunun inkişaf dinamikası və perspektivləri

Ölkə Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq edilib. Fərmanda bildirilir ki, işğaldan azad edilmiş ərazilərin bərpası, onların gələcək inkişafının təmin edilməsi, zəruri infrastrukturun yaradılması və əhalinin öz doğma yurdlarına qaytarılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Hesab edirik ki, yeni iqtisadi rayonlaşdırma bu tədbirlərin daha səmərəli təşkili üçün strateji əhəmiyyət kəsb edəcək. Məlumdur ki, Qarabağ bölgəsi yarandığı gündən özünəməxsus xüsusiyyətləri, məşğulliyyəti formaları, təbii sərvətləri, zəngin tarixi-mədəni irsi ilə yadda qalıb. Qarabağa tarixən Şuşa, Xankəndi, Ağcabədi və Bərdə rayonları ilə yanaşı, Ağdam, Füzuli, Tərtər, Xocavənd və Xocalı rayonları aid olub. Yeni yaradılmış Qarabağ iqtisadi rayonu bu rayonları əhatə edir.

İşğal nəticəsində Azərbaycan iqtisadi baxımdan Qarabağ regionu üzrə ərazi potensialının demək olar ki, 18,6 %-ni və inkişafa təsir və transkontinental əlaqələr, eləcə də geosiyası mövqe baxımından ərazi funksiyası əhəmiyyətini tam olaraq itirmişdir. Nəticədə 1988-1993-cü illər ərzində Qarabağ regionunda 900 yaşayış məntəqəsi,150 minə yaxın ev, 7 minə yaxın ictimai bina, 693 məktəb, 693 tibb müəssisəsi, 927 kitabxana, 9 məscid, 44 məbəd, 473 tarixi abidə, 6 minə yaxın sənaye və kənd təsərrüfatı müəssisəsi və digər infrastruktur obyektləri, ən əsası isə 540,4 min nəfərdən artıq region əhalisi məcburi köçkün vəziyyətinə düşərək, məhsuldar qüvvəyə malik ərazi təsərrüfat fəaliyyətindən kənarda qalmışdır (cədvəl 1).

Ərazi potensialı iqtisadi baxımdan ən mühüm inkişaf kateqoriyası hesab edilir. Burada iqtisadi inkişafa təsiri ilə seçilən mineral xammal yataqları, kənd təsərrüfatına yararlı torpaqlar, nəqliyyat infrastrukturu, turizmin inkişafina əhəmiyyətli dərəcədə təsir göstərən təbii-iqlim şəraiti və müalicə suları xüsusi yer

tutur.

**Cədvəl 1: Qarabağ regionun (yeni iqtisadi rayon üzrə) münaqişə nəticəsində1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı**

| İtirilmiş ərazilər | Sahəsi (km$^2$) | Əhalisi (min.nəfər.) |
|---|---|---|
| Xankəndi | 926 | 57,0 |
| Ağdam | 1154 | 15,8 |
| Xocavənd | 1458 | 9,01 |
| Xocalı | 970 | 11,6 |
| Şuşa | 289 | 24,9 |
| Füzuli | 1112 | 95,94 |
| Tərtər | 957 | 97,3 |
| Qarabağ Regionu üzrə | 14368 | 540,4 |
| Azərbaycan Respublikası | 86600 | 7440,0 |
| Qarabağ regionunun Respublikada xüsusi çəkisi, %-lə | 18,6 | 7,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/regions/).

İşğal altında olan Qarabağ regionunda 163 faydalı qazıntı yataqları, habelə 1 soda istehsalı üçün xammal, 5 qızıl, 2 mis, 6 gəc, 1 qurğuşun və sink, 12 bəzək və əlvan daşları, 1 perlit, 8 müxtəlif növ tikinti daşları, 7 civə, 10 mişar daşı, 9 gil, 21 üzlük daşı, 8 pemza-vulkan külü, 20 sement xammalı, 4 tikinti qumu, 10 qum-çınqıl, 6 əhəng xammalı, 11 mineral su və 16 yeraltı şirin su mənbəyi aşkar edilmişdir (Dövlət Statistika Komitəsi, 2020, səh. 346). Ümumiyyətlə isə, Qarabağın ermənilər tərəfindən işğal olunmuş ərazilərində 561 yataq və perspektiv minerallaşma sahəsi müəyyən edilmişdir. Regionun iqtisadiyyatının bərpasında ilk öncə istehsal infrastrukturunun qurulması mühüm əhəmiyyət daşıyır.

**İstehsal infrastrukturu** sənayenin əsas infrastruktur sahəsidir. İqtisadi fəaliyyətdə istehsal infrastrukturu çox şaxəli, iyerarxik, kompleks yaradan sistem kimi çıxış edir. İstehsal infrastrukturunun bir-birin tamamlayan müxtəlif bölmələri arasında sıx əlaqə mövcuddur. Sistem təhlili və inkişafin planlaşdırılması sənaye kompleksinin istehsal infrastrukturunun effektiv idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. İstehsal infrastrukturunu təhlil edərkən və planlaşdırarkən onun sahə quruluşunu da nəzərə almaq lazımdır (nəqliyyat, rabitə, enerji təchizatı). İstehsal infrastrukturunun sahəvi komponentləri məhsul dövriyyəsi prosesinin təmin edilməsində fərqli rol oynayır. Bəziləri bu prosesə birbaşa, digərləri dolayı yolla

əlaqəlidir.

İşğaldan azad edilmiş Qarabağda sənaye infrastrukturunun qurulması istiqamətində görülən işlər ilk növbədə yol və elektrik təsərrüfatı sahəsinə aiddir. Bu ərazilərdə infrastrukturun yaradılması regionda digər sosial-iqtisadi layihələrin həyata keçirilməsində mühüm amildir. Prezidentin rayona səfərləri zamanı vurğulanmışdır ki, hazırda əsas məqsəd işğaldan azad edilmiş torpaqların tezliklə bərpası, insanların öz doğma yurdlarına qayıtması və bu torpaqlarda həyatın dirçəlməsidir. Ona görə də enerji və yol layihələrinə üstünlük verilir.

Bərpa prosesinin qarşısında duran vacib vəzifələrdən biri də işğaldan azad olunmuş yerlərdə enerji infrastrukturunun formalaşdırılması və enerji təhlükəsizliyinin təminatıdır. Başlıca məqsəd işğaldan azad edilmiş ərazilərdə ən qabaqcıl standartlara ehtiva edən enerji sisteminin yaradılması və ölkənin ümumi enerji sisteminə inteqrasiyas edilməsidir. Öncə Şuşada yüksək gərginlikli elektrik xətləri çəkilib, şəhərdə elektrik yarımstansiyası inşa edilib. Yaxın müddətdə digər istiqamətlərə də yüksək gərginlikli elektrik xətləri çəkilməsi planlaşdırılır.

Region yüksək enerji potensialına malikdir. Belə ki, işğaldan azad edilmiş ərazilərdən çoxlu çaylar axır. Bu, həmin ərazilərdə su elektrik stansiyalarının tikintisinə imkan verir. Ermənilərin fikrincə, işğalçı ölkə elektrik enerjisinə olan tələbatının 30 faizini bu bölgə vasitəsilə təmin edib. Düşmən bu əraziləri tərk edərkən təbiətinə uyğun olaraq həmin stansiyaların bütün texnikasını aparıb, apara bilmədiklərini isə məhv edirdi.

İşğaldan azad edilmiş ərazilərdə mövcud su elektrik stansiyalarının (SES) bərpası və yenidənqurması prosesləri gedir. İşğal zamanı ermənilər mövcud kiçik su elektrik stansiyalarını dağıdıb, onların faydalı avadanlıqlarını sıradan çıxarıb, apara bilmədiklərini yandırıb və ya partladıblar. Nəticədə işğaldan azad edilən ərazilərdə su elektrik stansiyaları yararsız vəziyyətə düşüb. Ona görə də həmin stansiyalar bərpa olunur. Belə stansiyalardan biri, Laçın rayonunda yerləşən 8 meqavat gücündə "Güləbərd" SES artıq istismara verilib. 2021-ci il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev stansiyanın açılışını edib. Bu stansiya 7 minə yaxın insanı elektrik enerjisi ilə təmin edəcək. Güləbərd

stansiyasında istehsal edilən elektrik enerjisi Laçın rayonunun cənub hissəsini, Qubadlı rayonunun Xanlıq kəndini və stansiyanın yaxınlığında yerləşən digər infrastruktur obyektlərini elektrik enerjisi ilə təmin edəcəkdir (Bağırov O., 2021, s. 6). Ona görə də işğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması və digər nəzərdə tutulan işlərin görülməsi baxımından stansiyanın çox böyük əhəmiyyəti var.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Laçın rayonunda Güləbərd SES-in açılış mərasimində demişdir: “Qısa müddətdə qarşıya qoyulan tapşırıqlar yerinə yetirilmişdir və bu gün biz 8 meqavat gücündə Güləbərd SES-in açılışını edirik. Bu, işğaldan azad edilmiş torpaqlarda istifadəyə verilən ilk elektrik stansiyasıdır və böyük əhəmiyyəti və böyük simvolik mənası var. Biz bu torpaqlara qayıdırıq. Biz Kəlbəcər və Laçın rayonlarında uzun illərdir ermənilər tərəfindən qanunsuz istismar edilən və dağıdılan bütün su elektrik stansiyalarını bərpa edəcəyik” (https://president.az/ru/articles/view/52742/print).

Qeyd edildiyi kimi, Qarabağ bölgəsi bərpa oluna bilən enerji resursları ilə zəngindir. Qarabağ Azərbaycanın yerli su ehtiyatlarının toplandığı başlıca rayonlarından biridir. Respublikamızın yerli su ehtiyatlarının 25% faizi bu ərazidə formalaşır, yəni, ildə təxminən 2 milyard 560 milyon kubmetr təşkil edir. Rayonun əsas çayları olan Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri və digər kiçik çaylar böyük hidroenergetika potensialına malikdir. Onlardan bəziləri sovet dövründə istifadə olunurdu, lakin gələcəkdə bir çoxları istifadəyə veriləcək.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində üç böyük su elektrik stansiyası fəaliyyət göstərirdi ki, onlardan biri də Sərsəng su anbarı ilə birlikdə Tərtər çayı üzərində 1976-cı ildə Tərtər rayonunda tikilmiş Tərtər SES-dir. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidravlik aqreqatdan ibarətdir. Bənd hündürlüyünə (125 metr) görə Sərsəng ölkənin ən hündür bəndlərindən biridir. Sərsəng su anbarı 6 rayonun (Yevlax, Bərdə, Ağdam, Ağcabədi, Goranboy və Tərtər) 125 min hektara yaxın ərazisini suvarma suyu ilə təmin etmişdir. 1990-cı ildə stansiyada ildə 81,9 milyon kilovatsaat elektrik enerjisi istehsal edilmişdir. (http://regulator.gov.az/az/news/115).

Stansiya 1993-cü ildən erməni işğalı altındadır. Kompleksin lazımi texniki

xidmət göstərilmədiyini, istifadə edilən avadanlıq və alətlərin köhnəldiyini nəzərə alsaq, birinci növbədə onun texniki vəziyyətinin qiymətləndirilməsi, sonra isə bərpaetmə işlərinin aparılması lazım gələcək.

Bölgənin elektrik enerjisinə olan tələbatının ödənilməsində İran İslam Respublikası ilə birgə tikilən "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları mühüm rol oynayacaq. "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları regionda mühüm enerji obyektləridir. Tikinti başa çatdıqdan sonra bu stansiyaların Azərbaycan tərəfi üçün istehsal gücü 120 meqavat olacaq. Eyni zamanda, bu iki stansiya işğaldan azad edilmiş torpaqların suvarılmasında xüsusi rol oynayacaq.

Azərbaycanın Cəbrayıl rayonunun Xudafərin kəndindən bir kilometr şimal-qərbdə yerləşən "Xudafərin SES" layihəsinin sahəsi Cəbrayıl rayonunun işğalı nəticəsində (1992-ci ildən) Ermənistanın nəzarətində olub və stansiyanın tikintisi Azərbaycan tərəfindən dayandırılıb. Lakin İran tərəfdən stansiyanın tikintisi davam etdirilib. Qeyd edək ki, Azərbaycan tərəfdəki stansiyanın hər birinin gücü 50 meqavat olan iki hidroaqreqatdan ibarət olması nəzərdə tutulut.

Araz çayı üzərində inşa edilməsi nəzərdə tutulan "Qız qalası su elektrik stansiyası"nın hər birinin ayrı-ayrılıqda gücü 20 MVt olan iki su elektrik aqreqatından təşkil olması planlaşdırılır, İran stansiyanı inşa edir. Xudafərin SES-in bəndinin tikintisi təxmini olaraq, başa çatıb, Qız qalasının bəndində işlər bitmək üzrədir. Qız qalalarının və Xudafərin su elektrik stansiyalarının inşası və istismarı iki ölkənin arasında 2016-cı ildə imza atılmış sazişə əsasən tənzimlənir. 2016-cı ilin fevralında "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Xudafərin və Qız qalası su elektrik stansiyalarının (SES) tikintisi, istismarı, enerji və su ehtiyatları sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Araz çayı üzərində sözü gedən bu layihələrin icra edilməsi nəticəsində Azərbaycanın ildə 368 milyon kilovatsaat elektrik enerjisi istehsal etməsi mümkün ola bilər (https://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-olunan-erazilerimizde-tezlikle-isiqli-gunler-baslayacaq). 2020-ci il oktyabr ayında Cəbrayıl rayonunun işğaldan azad olunması və İran İslam Respublikası ilə dövlət sərhədinə tam nəzarətin təmin edilməsi Qız qalası və Xudafərin su elektrik stansiyalarının

tikintisinin bitməsi baxımından çox vacib hadisədir. Həmin layihələr həm elektrik enerjisinin paylanmasında, həm də işğaldan azad olunmuş ərazilərin suvarılmasında əhəmiyyətli rol oynayacaq.

Digər SES-lərə gəlincə, Suqovuşanda "Suqovuşan-1" və "Suqovuşan-2" SES-lərində də vacib təmir işləri aparılır, Füzulinin Şükürbəyli kəndi yenidən qurulur. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərin təbii qazla təmin edilməsi üzrə hazırlanmış proqram çərçivəsində SOCAR ümumi uzunluğu 416 km olan magistral qaz kəmərinin tikintisini planlaşdırır. İşğaldan azad edilmiş ərazilərdə reallaşdırılacaq keçiriləcək enerji siyasətinin başlıca məqsədi bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsidir. Ona görə də işğaldan azad edilmiş ərazilərdə enerji sektorunda bərpa olunan enerji mənbələrindən tükətimə və həmçinin, ekoloji cəhətdən təmiz texnologiyalardan istifadəyə üstünlük verilir. Bu, enerji resurslarından daha səmərəli istifadə etməyə imkan verəcək. SES-in əsaslı şəkildə bərpası da bu məqsədlərə nail olmağa kömək edəcəkdir. Şübhəsiz ki, Sərsəng və Xudafərin SES-lərdən yaxınlıqdakı ərazilərin enerji təchizatının yaxşılaşdırılması və işğaldan azad edilmiş ərazilərin bərpası üçün fəal şəkildə istifadə olunacaqdır. Ümumiyyətlə, bu ES-lərin ölkənin enerji sisteminə daxil edilməsi gücün artırılması ilə bərabər, qaynaqların coğrafi şaxələnməsinə, yəni, Şirvan, Mingəçevir və Abşeron üzərində düşən yüklərin azaldılması, eləcə də alternativ enerji istehsalının ümumi istehsalda çəkisinin artması deməkdir.

İşğaldan azad edilmiş ərazilərdə ekoloji cəhətdən təmiz, bərpa olunan enerji mənbələrinin yaradılması üçün geniş imkanlar var. Dövlət başçısı bildirib ki, bu torpaqlar "yaşıl enerji" zonasına çevriləcək. Belə ki, Zəngilan və Cəbrayılda günəş enerjisi istehsalı üçün böyük imkanlar var. Artıq Qarabağda bərpa olunan enerji mənbələrindən istifadə, ekoloji təmiz texnologiyalar, enerji səmərəliliyi, habelə nəqliyyat vasitələrinin istifadəsi və s. yaşıl zona konsepsiyasının hazırlanmasına başlanılacaq. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi ilə danışıqlar aparılır. İlkin hesablamalara görə, bu ərazilərdə 4000 MVt-dan çox günəş və 500 MVt-a qədər külək enerjisi mövcuddur.

Yer səthinə çatan günəş radiasiyasının həcminə görə Qarabağın cənub hissəsi

- Füzuli, Zəngilan, Cəbrayıl rayonları Muxtar Respublika ərazisindən sonra ikinci yerdə qərarlaşır. Burada üfüqi səthə çatan günəş radiasiyasının bir kvadratmetri ildə 1600-1700 kVt/saat olmaqdadır. Sözü gedən ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır (O.Bağırov, 2021, s. 8). Torpaqlarımız düşmən minalarından tam təmizləndikdən sonra ölçü-müşahidə məntəqələri quraşdırılmaqla, dəqiq potensial hesablanacaq.

"Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürəti 7-8 m/s olan geniş ərazilər var. "Globalwindatlas.info" platformasının məlumatına görə, Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd rayonlarında küləyin orta illik sürəti 10 m/s-ə çatır. Ümumilikdə Qarabağın dağlıq rayonlarında külək enerjisinin potensialı 300-500 meqavat qiymətləndirilir. Bundan əlavə, Şuşada 412 m3/gün termal su ehtiyatı var".

Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli sərəncamı ilə təşkil edilmiş Dövlət Komissiyası ölkədə su ehtiyatlarından düzgün istifadənin təmin edilməsi yönündə tədbirlər reallaşdırır. Bu kontekstdə işğaldan azad olunmuş bölgələrdə zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatıdan ötrü xüsusi əhəmiyyət kəsb edir. Respublikanın ən yüksək bəndi olan Sərsəng su anbarının aid olduğu Ağdərə rayonunun tam azad olunması Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarında 100 min hektara yaxın ərazini suvarma suyu ilə təmin edib. Qeyd edək ki, Sərsəng su anbarı istisna olmaqla, azad edilmiş ərazilərdə ümumi tutum 80 milyon kub metrdir. Sahəsi 15 min hektar olan başqa su anbarları da var ki, onların təsərrüfata daxil edilməsi əlavə 15 min hektar torpağın suvarılmasına şərait yarada bilər (http://interfax.az/view/817974/az). Prezidentin tapşırığı ilə Qarabağ bölgəsi davamlı olaraq inkişaf edəcək və ölkə həyatına yenidən inteqrasiya olunacaqdır. İnfrastrukturun yaradılmasında şəhərlərin salınması məsələsi xüsusi əhəmiyyət kəsb edir.

"Şəhərsalma haqqında" qanuna görə, şəhərlərin tikintisinə başlamazdan əvvəl şəhərlərdə yaşayan əhalinin sayı və tikilməkdə olan binaların mərtəbələrinin sayı müəyyən edilməlidir. Bundan sonra şəhərdə yeraltı və yerüstü kommunikasiyalar üzrə işlər aparılmalıdır. Şəhərsalma qaydalarına görə, hər bir şəhərin bir mərkəzi

olmalıdır və bu mərkəzlər peyk vasitəsilə birləşdirilməlidir. Müxtəlif peyklər yaradılarsa, gələcəkdə yeni şəhərlərdə kortəbii tikintinin qarşısı alınar. Yenidənqurma zamanı bu ərazilərin seysmikliyi nəzərə alınmaqla maksimum 9 mərtəbəli, xüsusilə 3,5 və 7 mərtəbəli binaların tikintisi nəzərdə tutulur. Laçın dəhlizi kimi bildiyimiz yol əslində İrəvan-Gorus-Laçın-Şuşa-Xankəndi yoludur. Qubadlı, Kəlbəcər kimi digər rayonlar da bu yola qoşulur. Gələcəkdə bu yolun genişləndiriləcəyini və Rusiyanın sülhməramlılarının bu dəhlizdə daim qalmayacağını nəzərə alsaq, gələcəkdə Laçının ticarət fəaliyyətindən bəhrələnən bir bölgəyə çevriləcəyini söyləmək olar. Çünki bu gün hərbi qarşıdurmalarda daha çox populyar olan bu marşrut bir gün məqsədini ticarət əlaqələrinə və yük daşımalarına dəyişəcək. Qarabağın, eləcə də ona bitişik rayonların bu coğrafiya vasitəsilə Ermənistanla birləşdirilməsi bu yerin iqtisadi inkişafina öz təsirini göstərəcək, çünki bura təkcə əmtəə bazarının inkişafi üçün deyil, həm də müqavilələrin bağlanması üçün çox əlverişlidir.

Prioritetlər sırasında beynəlxalq hava limanlarının və yeni dəmir yolu xətlərinin tikintisi, mobil rabitə sistemlərinin yaradılması da var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə müvəqqəti xüsusi idarənin yaradılması haqqında fərmanına əsasən, "Azərkosmos" ASC dövlət qurumlarını peykdən çəkilmiş şəkillər, digər geoinformasiya məlumatları və sorğular əsasında müxtəlif məzmunlu təhlillər ilə təmin etməlidir.

Artıq Şuşada ilk 4G şəbəkəsi və mobil operator fəaliyyət göstərir. İşğaldan azad edilmiş bütün əraziləri sürətli müasir mobil şəbəkə ilə əhatə etmək, fasiləsiz rabitə xidmətlərini bərpa etmək, radio və televiziya yayımını genişləndirmək üçün yaradılmış LTE şəbəkəsi və yüksək keyfiyyətli nəqliyyat, telekommunikasiya, poçt və müasir sərnişin xidmətlərini təmin edən texniki infrastruktur həm bölgənin inkişafina, həm də məşğulluq problemlərinin həllinə xidmət edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası üçün ilk addımlar nəqliyyat infrastrukturunun qurulması oldu. Qarabağın dirçəlişinə aparan "Böyük Qayıdış" proqramının 1-inci hissəsi işğal olunmuş ərazilərdə təzə yol-nəqliyyat infrastrukturunun formalaşdırılamsıdır. Həyata keçirilən nəqliyyat layihələri

Qarabağa şimaldan, cənubdan və şərqdən köçməyə imkan verəcək. İlk həyata keçirilən layihələrdən biri də Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinə gedən yolların yenidən qurulması olub. Döyüşlər hələ də davam edərkən bu yolların tikintisinə başlanılıb. “Bu yolun Tərtərdən Suqovuşan kəndinə qədər olan sahəsi 21 km, Suqovuşandan Talış kəndinə qədər olan sahəsi isə 7,5 km-dir. 2 enli zolaqdan ibarət olacaq yolun asfalt-beton örtüyünün eni 9 metrdir və bu yollar artıq 1-ci mərhələdə 2-ci texniki dərəcəyə uyğun bərpa olunub”. Növbəti mərhələdə Çaylı kəndindən Talış kəndinə 8 kilometr uzunluğunda avtomobil yolunun, eləcə də Talış kəndindən Naftalan şəhərinə 22 kilometr yeni yolun çəkilməsi nəzərdə tutulur. Bu yolların Tərtər şəhəri ilə birləşdirilməsi nəticəsində Naftalan şəhərindən Talış və Suqovuşan istiqamətində alternativ nəqliyyat vasitələrinin hərəkəti imkanı yaranacaq. Digər mühüm avtomobil yolu Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoludur. Noyabrın 17-si 2020-ci ildə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihəsinin hazırlanması və tikintisi ilə əlaqədar tədbirlər haqqında sərəncama imza atılıb, sərəncama uyğun olaraq, Prezidentin ehtiyat fondundan 50 mln. azn ayrılıb. Yolun eni 37,7 metr, ümumi uzunluğu isə 101,5 km olacaq və 2022-ci ildən gec olmayaraq hazır ediləcəyi gözlənilir (Bağırov O. 2021, s. 5). Bu yolu Füzulidə tikiləcək yeni hava limanı ilə birləşdirmək üçün yolun 27 km-də nəqliyyat qovşağının və hava limanına giriş yolunun tikintisi nəzərdə tutulub. Bu yolun simvolik hissəsi Füzuli-Şuşa avtomobil yoludur. Bu yol Topxana meşəsinin ətəklərindən keçərək Daşaltı kəndinə, buradan isə Şuşa şəhərinə qədər uzanacaq. İsa bulağına gedən yol da bu yoldan çəkiləcək və yolun dörd, bəzi yerlərdə isə altı zolaqlı olacağı gözlənilir. Füzuli-Şuşa yolu hərbiçilərimizin Qarabağın mərkəzinə, xüsusən Şuşaya doğru irəlilədiyi yoldur. Buna görə də ölkəmizin başçısı bu yolu “Qələbəyə gedən yol” adlandırıb. Şimal istiqamətində Toğanalı-Kəlbəcər avtomobil yolunun tikintisi nəzərdə saxlanılır. Bu yol Göygöl rayonunun Toğanalı kəndindən başlamaqla, Murov dağ silsiləsindən keçərək İstisu, Kəlbəcər və Laçın istiqamətində davam edəcək. Yolun bütövlükdə uzunluğu təxminən 190 km-dir. Toğanalı-Kəlbəcər yönündə olan hissə 74 km, Kəlbəcər-İstisu yöünündə 28 km, Kəlbəcər-Laçın istiqamətində 87 km-dir. Yol ikizolaqlı, bəzi hissələrdə isə üçzolaqlı olacaq.

Layihənin 16 kilometrliyindən Murov dağ silsiləsi başlayır, sonra yolun keçəcəyi bəzi hissələrdə hündürlük 3500 metrə çatır. Bu da qış fəslində yoldan istifadəni çətinləşdirəcək. Qeyd olunan problemi önləmək üçün tunellərin tikintisi planlaşdırılır. Tikilən tunellərin ümumi uzunluğu təqribən 10-12 km olacaq. Tunellərdə zolaqların sayının 4-ə çatdırılması nəzərdə tutulur. Qeyd olunan avtomobil yolları ilə yanaşı, Horadizdən Zəngilana, oradan isə Qubadlı və Laçın rayonlarına avtomobil yolunun çəkilməsi ilə bağlı tapşırıqlar verilib və bu istiqamətlərdə hazırlıq işlərinə başlanılıb. Beləliklə, bu yolların tikintisinin nəticəsi olaraq həm cənubdan, həm də şimaldan Kəlbəcər və Laçın rayonlarına gedən çağdaş yol-nəqliyyat infrastrukturu təşkil ediləcək.

Bərpa prosesində avtomobil yolları ilə yanaşı, dəmir yollarının tikintisi və yenidən qurulması nəzərdə tutulur. Bu dəmir yollarından biri də şərqdən Qarabağa hərəkət etməyə imkan verən Bərdə-Ağdam dəmir yoludur. Bərdə-Ağdam dəmir yolu işğaldan əvvəl istifadədə olan 104 km-lik Yevlax-Xankəndi dəmir yolunun bir hissəsidir.

Hazırda Bərdədən Ağdama gedən yolun 45 kilometrlik hissəsi yenidən qurulur. Dəmir yolu xəttinin tikintisi və layihələndirilməsi iki mərhələdə həyata keçiriləcək. Birinci mərhələdə Bərdə-Təzəkənd dəmir yolunun 19 kilometri, ikinci mərhələdə Təzəkənd-Ağdam xəttinin 26 kilometri bərpa olunacaq. Artıq bu yolun tikintisinə dövlət tərəfindən 5 milyon manat vəsait ayrılıb. Bununla yanaşı işğaldan azad edilmiş ərazilərdə Füzuli-Şuşa və Horadiz-Füzuli dəmir yolu xətti çəkiləcək. Şuşanın Qarabağın əsas mədəniyyət və turizm mərkəzlərindən birinə çevriləcəyi gözlənildiyi üçün Şuşaya gedən avtomobil yolu ilə yanaşı dəmir yolu xətti də çəkiləcək. Planlaşdırılan digər dəmir yolu layihəsi Horadiz-Ağbənd dəmir yolunun yenidən qurulmasıdır. Bu yol Ermənistan ərazisindən Naxçıvana gedən Zəngəzur dəhlizinin vacib komponentlərindən biridir.

Yeni iqtisadi rayonlaşma nəticəsində Ağcabədi və Bərdə rayonlarının iqtisadi rayonun tərkibinə daxil edilməsi regionun inkişafina xüsusi töhfə verəcəkdir. Bu 2 rayon respublika ərazisinin 24,4%-ni təşkil etməklə böyük iqtisadi potensiala malikdir (Dövlət Statistika Komitəsi, 2020, səh 347). Qarabağ iqtisadi rayona daxil olan

digər rayonlardan fərqli olaraq bu iki rayonun işğal altında olmaması onların iqtisadi baxımdan fərqli göstəricilərində əksini tapır.

**Cədvəl 2: Bərdə və Ağcabədi rayonları üzrə sənaye göstəriciləri**

| | **Bərdə** | **Ağcabədi** |
|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 26 | 13 |
| Sənaye məhsulu (müvafiq ilin qüvvədə | | |
| olan faktiki qiymətləri ilə), min manat | 23946,0 | 52356,5 |
| Sənaye istehsalı indeksi, əvvəlki ilə | | |
| nisbətən, faizlə (sabit qiymətlərlə) | 99,8 | 110,9 |
| Sənaye məhsulunda qeyri - dövlət | | |
| sektorunun xüsusi çəkisi, faizlə | 59,7 | 59,6 |
| Hazır məhsul ehtiyatının | | |
| ilin axırına qalığı, min manat | 3224,0 | 2714,0 |
| Əsas məhsul növlərinin | | |
| natura ifadəsində istehsalı: | | |
| Pambıq lifi (kardo və daraqla daranmış), ton | 6762,3 | 10135,2 |
| Pambıq tiftiyi (linti) və pambıq çiyidi, ton | 9001,3 | 13364,3 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/regions/).

Cədvəldən göründüyü kimi hazırda Bərdə rayonu üzrə fəaliyyət göstərən müəssisələrin sayı 26, Ağcəbədi rayonu üzrə 13-dür. Bununla belə dəyər göstəriciləri baxımından sənaye məhsulu istehsalının həcmi Ağcbəbədi rayonunda Bərdə rayonu ilə müqayisədə 2 dəfədən artıq olmuşdur. İşğaldan azad olunmuş ərazilərin bərpa edilməsinin əsas yönlərindən biri də şəhər və kəndlərin bərpasıdır. Kənd və şəhərlərimizin işğalçılar tərəfindən tamamilə dağıdılması bu istiqamətdə ciddi iş tələb edir. İşğal nəticəsində 9 mindən çox evə ziyan dəydiyi təxmin edilir. Bu evlərin bərpasının əsas istiqamətləri müəyyən edilmişdir: çoxmənzilli binaların yenidən qurulması, kəndlərin bərpasında vahid yanaşmanın tətbiqi və kəndlərdə əhalinin optimal sayının müəyyən edilməsi. İşğaldan əvvəl bəzi kəndlərin əhalisi az idi (25-50 nəfər). Yenidənqurma prosesində balaca kəndlərin qurulması səmərəsiz olduğundan, hazırda daha böyük kəndlərin tikintisi planlaşdırılır. Bu, resurslardan daha faydalı istifadə etməyə və xərcləri optimallaşdırmağa imkan verəcək. Bu proseslərin reallaşdırılması üçün artıq şəhərin yeni baş planları işlənilir. Digər mühəndis infrastrukturunun bərpası istiqamətində də zəruri tədbirlər görülür. Şəhər və kəndlərin yenidən qurulmasının mahiyyəti bu prosesdə “ağıllı şəhər” və “ağıllı

kənd” anlayışlarından istifadə etməkdir. Bu konsepsiyaların tətbiqi şəhərsalmada ən qabaqcıl dünya texnologiyalarını tətbiq etməyə və dünyanın aparıcı texnologiya şirkətlərini ölkəmizə cəlb etməyə imkan verəcək. Sonradan bu təcrübə başqa kənd və şəhərlərdə də tətbiq oluna bilər. Bu anlayışların tətbiqi çoxlu faydalar yaradacaq. Bu prioritetlərə davamlı iqtisadi inkişafin təmin olunması, mövcud resurslardan düzgün istifadə, ətraf mühitin mühafizəsi, səmərəli nəqliyyat sisteminin yaradılması, daha təhlükəsiz icmaların yaradılması, səmərəli ictimai xidmətlərin göstərilməsi və xidmət səviyyəsinin yüksəldilməsi daxildir.

## 2.2. Qarabağ iqtisadi rayonunda sosial infrastrukturun inkişafının xüsusiyyətləri

Sosial-iqtisadi dəyişikliklərin hazırkı mərhələsi ölkənin və onun regionlarının, xüsusilə işğaldan azad edilmiş ərazilərin əsas rəqabət üstünlüyünün insan resurslarının miqdarı və keyfiyyəti ilə əlaqəli olduğunu göstərir. Belə bir vəziyyətdə insanların həyatını və insan potensialının inkişafını təmin edən şəraitin yaradılması məsələsi çox vacibdir. Bu kontekstdə regionun sosial infrastrukturunun (fəaliyyəti əhalinin ən vacib ehtiyaclarını ödəməyə yönəldilmiş) xüsusi əhəmiyyəti, insan potensialının inkişafi üçün imkanları təmin etmək və genişləndirmək bacarığı və bununla da bütövlükdə ərazinin sosial-iqtisadi inkişafina təsir göstərməsidir. Sosial infrastrukturun formalaşması prosesi iqtisadi artım templərinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsi amillərindən biridir (Əlirzayev Ə.Q., 2010, s.127).

Sosial infrastrukturun tərkib hissəsi aşağıdakı kompleksləri əhatə edir: tədris, mədəniyyət, dövlət və ictimai, dini, maliyyə və hüquq, tibbi və profilaktik, müalicə və istirahət, idman, sosial sığorta və əhalinin sosial müdafiəsi strukturları, məişət, elm, təhsil, səhiyyə, mədəniyyət, idman və s. komplekslər. Sosial infrastrukturlar bir sıra səbəblərə görə xüsusi əhəmiyyət kəsb edir (Əlirzayev Ə.Q., 2010, s.127-128).

İlk olaraq, göstərilən xidmətlərin keyfiyyət səviyyəsi və əlçatanlıq dərəcəsi əhalinin ehtiyaclarını və imkanlarını tam təmin etməlidir. Bir çox hallarda regiondakı infrastruktur obyektlərinin mövcudluğu həmişə əhalinin yüksək səviyyəsinə və həyat keyfiyyətinə zəmanət vermir. İkincisi, sosial infrastruktur

əlverişli yaşayış şəraitinin formalaşdırılması, əmək ehtiyatlarının qorunması, insan potensialının inkişafi kimi əsas funksiyaları yerinə yetirməlidir. Üçüncüsü, regionlar hər zaman sosial infrastrukturun inkişaf problemlərini özləri həll edə bilmirlər. Belə ki, infrastrukturun inkişafi regionun iqtisadi imkanları ilə müəyyən edilir. Eyni zamanda sosial infrastruktur sosial-iqtisadi sistem olaraq regionun bir hissəsidir, ərazi xarakteri daşıyır. Buna görə inkişaf problemləri əsasən regional sosial siyasət çərçivəsində həll olunmalıdır.

**Cədvəl 3: Qarabağ iqtisadi rayonu üzrə sosial infrastruktur göstəriciləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Səhiyyə və təhsil üzrə:** | | | | | | |
| Xəstəxanaların sayı | 66 | 66 | 66 | 65 | 65 | 65 |
| Xəstəxana çarpayılarının sayı | 4522 | 4372 | 4192 | 4187 | 4209 | 4179 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 196 | 196 | 196 | 197 | 196 | 196 |
| Əhalinin hər 10000 nəfərinə düşən: | | | | | | |
| həkimlər | 15,6 | 13,5 | 12,7 | 12,6 | 11,7 | 10,7 |
| orta tibb işçiləri | 51,1 | 44,6 | 41,5 | 40,2 | 41,2 | 39,6 |
| xəstəxana çarpayıları | 59,6 | 56,9 | 54,0 | 53,5 | 53,3 | 52,6 |
| ambulator-poliklinika müəssisələrinin gücü (növbədə gəlişlərin sayı) | 108,3 | 107,0 | 106,0 | 105,1 | 104,3 | 103,7 |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 169 | 170 | 176 | 176 | 179 | 179 |
| onlarda uşaqların sayı, nəfər | 8972 | 9053 | 9577 | 9614 | 10078 | 9995 |
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 450 | 450 | 449 | 449 | 448 | 448 |
| onlarda şagirdlərin sayı, nəfər | 89715 | 96250 | 100051 | 103258 | 106257 | 108740 |
| Kütləvi kitabxanaların sayı | 440 | 438 | 425 | 425 | 426 | 426 |
| onlarda kitab fondu, min nüsxə | 3023,0 | 3020,4 | 3018,0 | 2986,3 | 2980,6 | 2976,2 |
| Klub müəssisələrinin sayı | 415 | 413 | 406 | 409 | 370 | 370 |
| Muzeylərin sayı | 24 | 24 | 25 | 25 | 26 | 26 |
| onlara gələn ziyarətçilərin sayı, min nəfər | 130,1 | 129,9 | 114,3 | 139,4 | 108,1 | 30,7 |
| **Turizm üzrə:** | | | | | | |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid | 4 | 4 | 4 | 5 | 7 | 7 |
| Onlarda nömrələrin sayı, vahid | 96 | 96 | 96 | 106 | 132 | 132 |
| birdəfəlik tutum, yer | 206 | 206 | 206 | 236 | 288 | 288 |
| Gecələmələrin sayı, adam-gecə | 2014 | 2174 | 2630 | 3198 | 5624 | 4539 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat | 126,6 | 78,7 | 87,8 | 119,4 | 242,7 | 247,2 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/regions/).

Dördüncüsü, insan resurslarının keyfiyyətinə təsir göstərən bir amil kimi sosial infrastrukturun inkişafina yönəlmiş regional bir sosial siyasətin hazırlanmasına ehtiyac var. Qarabağ iqtisadi rayonu üzrə sosial infrastrukturun mövcud vəziyyəti cədvəl 3-də verilmişdir.

Cədvəl üzrə məlumatların təhlili göstərir ki, son 5 ildə səhiyyə xidmətləri göstərən xəstəxanaların sayında fərq müşahidə edilməsə də (66-dan 65-ə enmişdir), xəstəxanalarda çarpayı sayı 7,5%, əhalinin hər 10 min nəfərinə düşən tibbi personalın sayında 24% azalma olmuşdur. Əhali sayında artımı nəzərə alaraq tibbi personalın sayının artırılmasına ehtiyac vardır. Həmçinin, Qarabağ regionuna ilkin hesablamalara görə yarım milyon insanın geri qayıdacağını nəzərə alaraq səhiyyə müəssisələrinin sayının artırılması zəruridir. Son 5 ildə məktəbəqədər təhsil müəssisələrinin sayı 169-dan 179-a yüksəlmişdir. Əyani orta təhsil müəssisələrinin sayı 450-dən 448-ə düşsə də orada təhsil alan şagirdlərin sayı 17% artmışdır.

Son 5 ildə turizm xidmətlərində daha çox artım müşahidə edilməkdədir, bu sahədə göstəricilər 2 dəfədən çox artmışdır. Həmçinin informasiya və rabitə xidmətlərindən əldə edilən gəlirlər 1,4 dəfə artmışdır.

**Cədvəl 4: Qarabağda sosial infrastrukturun bərpası istiqamətlərinə tələb olunan vəsaitlər**

| Sosial infrastrukturun inşası | Milyon AZN | İnflyasiya ilə (Milyon AZN) |
|---|---|---|
| Xəstəxana və təcili tibbi yardım stansiyalarının inşası üçün | 161,2 | 248,1 |
| Təhsil obyektlərinin inşası üçün | 310 | 450 |
| Mədəniyyət və idman təsislərinin inşası üçün | **Milyon AZN** | **İnflyasiya ilə (Milyon AZN)** |
| İcma mərkəzlərinin inşası üçün | 18 | 31,4 |
| Klubların inşası üçün | 96 | 142,8 |
| Kitabxanaların inşası üçün | 4,5 | 7,03 |
| İdman komplekslərinin inşası üçün | 12 | 22,8 |
| Ümumi məbləğ | 130,5 | 204,1 |

**Mənbə:** Müzəffərli N., İsmayılov E. 2010, səh. 4

Regionda sosial infrastrukturun bərpası istiqamətləri Cədvəl 4-də göstərilmişdir.

Beləliklə, işğaldan azad olunmuş ərazilərin beş il müddətində yenidən qurulması və bərpası, bu müddət ərzində təxmin edilən inflyasiyanı nəzərə almaqla 15-20 milyard manat aralığında vəsait tələb edir.

Ümumiyyətlə sosial infrastrukturun inkişafi ilə bağlı onun tərkib hissələrinin bir sıra xüsusiyyətləri nəzərə alınmalıdır:

1. Onun göstərdiyi xidmətlər nəql edilə bilməz və bir qayda olaraq yerli əhaliyə verilir;

2. Sosial infrastruktur xidmətlərinə tələb vaxtaşırı dəyişkənliyə məruz qalır;

3. Fərqli xidmətlər bir-birini əvəz edə bilməz və bir çoxu fərdi qaydada təqdim olunur. Bu mənada, bəzi infrastruktur elementləri digərləri ilə əvəz edilə bilməz, yalnız bir-birlərini qarşılıqlı əlaqələndirən və tamamlayan bir kompleksdə fəaliyyət göstərirlər;

4. Sosial infrastruktur əhalinin sağlamlığını qorumaq, təhsil almaq, asudə vaxtlarını keçirmək və digər sahələrdə ehtiyaclarını ödəməyə, bölgədə tələb olunan həyat səviyyəsinə və keyfiyyətinə zəmanət verməyə, iqtisadiyyatın müxtəlif sahələri üçün insan resurslarının və peşəkar təlim keçmiş kadrların təkrar istehsalını təmin etməyə imkan verir.

Regionda sosial infrastrukturun inkişaf hədəfləri və istiqamətləri təbii olaraq ərazinin strateji sosial-iqtisadi inkişafının prioritetlərindən və dövlət siyasətindən irəli gəlir. Odur ki, regionun sosial infrastrukturunun inkişafi üçün təkcə sosial deyil, həm də iqtisadi strateji hədəfləri müəyyənləşdirmək zəruridir:

- əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması;
- öz torpaqlarına qayıdacaq şəxslərə sosial xidmətlərin təmin edilməsi;
- sosial təşkilatların səmərəliliyinin artırılması;
- regionun sabitliyinin təmin edilməsi.

Regionun xüsusiyyətləri nəzərə alınaraq sosial infrastrukturun inkişafının strateji hədəflərinə çatmaq üçün regional orqanlar sosial sahədəki prosesləri aşağıdakı istiqamətlərdə tənzimləməlidirlər:

- prioritet sosial inkişaf proqramlarının həyata keçirilməsi;
- xidmətlərin miqdarı və keyfiyyətinə, sosial xidmətlərin qiymət parametrlərinə nəzarətin təşkil edilməsi.

Regionun sosial infrastrukturunun inkişafi strategiyasında mühüm rolu aşağıdakı elementləri özündə cəmləşdirən dəstəkləyici baza oynayır:

1. Sosial infrastruktur obyektlərinin maliyyələşdirilməsi üçün birbaşa subsidiyalar şəklində ayrıla bilən regional və bələdiyyə büdcələrinin maliyyə mənbələri;
2. Sosial layihələrin həyata keçirilməsi üçün cəlb olunan özəl investisiya;
3. İnsan və maddi-texniki mənbələr, resurslar;
4. Sosial xidmətlər (səhiyyə xidmətləri, mənzil-kommunal xidmətlər, təhsil xidmətləri) üçün tariflərin hesablanması metodlarının inkişafi;
5. Əhaliyə vaxtında və keyfiyyətli sosial xidmətlərin göstərilməsinə yönəlmiş informasiya dəstəyi.

Regionun sosial infrastrukturunun inkişaf xüsusiyyətləri nəzərə alınarkən əhalinin sosial infrastruktur xidmətlərinə ehtiyacları xüsusilə nəzərə alınmalıdır. Bu regiona yeni köçürüləcək əhali qruplarının sosial tərkibi təhlil edilməlidir. Regionda sosial xidmətlərin təşkilinə xüsusi önəm verilməlidir. Turizm infrastrukturu bu bölgənin zəngin tairixi, mədəniyyət ocaqları, zəngin təbiəti ilə sıx bağlı olaraq inkişaf etdirilməlidir.

Sosialyönümlü innovativ iqtisadiyyatın formalaşması zəkanın, insanın yaradıcı potensialının, iqtisadi artımın və milli rəqabət qabiliyyətinin aparıcı amilinə çevrilməsi deməkdir. Beləliklə, sosial infrastruktur regional iqtisadi artım üçün vacib inteqrasiyaedici amildir. İnfrastruktur nə qədər inkişaf edirsə, regionun bütün iqtisadiyyatı o qədər çevik olar.

Regional sosial infrastrukturun inkişafi zamanı əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına, rifah səviyyəsinin və uzunömürlülüyünün səviyyəsinin yüksəldilməsinə, sağlam, yaradıcı cəhətdən fəal bir nəslin formalaşmasına və çoxalmasına yönəlmiş sosial siyasətin əsas vəzifələri nəzərə alınmalıdır. Bu, ilk növbədə:

- mənzil problemini həll etməyi, əhalinin keyfiyyətli mənzillərə artan ehtiyaclarını

ödəməyi;
- sosial infrastrukturun inkişaf səviyyəsinin və keyfiyyətinin artırılmasını, insan həyatının mədəni sferasının yaradılmasını; əmək məhsuldarlığının, məhsul və xidmətlərin həcminin artırılması üçün əsas kimi işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsini;
- əhalinin bütün qrupları, o cümlədən gənclər və təqaüdçülər üçün sosial təminat zəmanətlərinin yaradılmasını;
- əhalinin ödəmə qabiliyyəti səviyyəsini artırarkən onların mal və xidmətlərə olan ehtiyacını ödəməyi nəzərdə tutur.

Sosial infrastrukturun regional iqtisadiyyata təsiri ondadır ki, iqtisadiyyatın əsas mənbəyi olan əmək ehtiyatlarının təkrar istehsalını təmin etməyə imkan verir. Sadalanan funksiyalara əsasən regionun sosial infrastrukturunun səmərəli inkişafının nəticəsi olaraq aşağıdakılar baş verməlidir: əhalinin hərtərəfli ehtiyaclarının ödənilməsi, yaşayış şəraitinin təmin edilməsi və yaxşılaşdırılması, insan inkişafi imkanlarının genişləndirilməsi.

Qeyd edilənlərə əsaslanaraq, regionun sosial infrastrukturunun xüsusiyyətlərindən irəli gələrək onun inkişafi üçün əsas istiqamətləri Sxem 1-dəki kimi təklif edə bilərik.

**Sxem 1: Regionun sosial infrastrukturunun inkişaf istiqamətləri**




**Mənbə:** Рамазанова Д.Р. 2017, s.39-40

1. Demoqrafiya sahəsində:
- profilaktik tədbirlərin və tibbi-diaqnostik yardımın təşkili və təkmilləşdirilməsi;
- öz torpaqlarına qayıdan sakinlərə layiqli mənzil şəraiti təmin etmək;

- yol təhlükəsizliyinin təmin edilməsi və minalardan təmizləmə.

2. Səhiyyə sahəsində:

- sosial əhəmiyyətli xəstəliklərin (diabet, vərəm və s.) qarşısının alınması, diaqnozu və müalicəsinin yaxşılaşdırılması, regionda yaşayan əhaliyə tibbi yardımın təşkil edilməsi;
- tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi;
- dövlət və özəl tərəfdaşlığına əsaslanan ixtisaslaşdırılmış yüksək texnoloji tibb mərkəzlərinin yaradılması;
- tibb işçilərinin hazırlanması və ixtisasartırma sisteminin təkmilləşdirilməsi; - bədən tərbiyəsinin-idmanın inkişafi və s.

3. Məktəbəqədər təhsil sahəsində:

- məktəbəqədər təhsil sahəsinə investorlardan vəsait cəlb etmək və müvafiq olaraq regional büdcənin xərclərini azaltmaq;
- qanunvericilik səviyyəsində məktəbəqədər təhsil müəssisələri tikmək sahəsində fəaliyyəti stimullaşdırmaq.

4. Sosial təminat sahəsində:

- əhaliyə göstərilən sosial xidmətlərin strukturunu və keyfiyyətini milli və regional keyfiyyət standartlarına uyğunlaşdırmaq;
- məqsədli proqram maliyyələşdirməsi hesabına sosial xidmət müəssisələrinin şəbəkəsini qurmaq və inkişaf etdirmək və maddi-texniki bazasını gücləndirmək;
- sosial xidmətlərin göstərilməsi üçün effektiv müasir texnologiyaların tətbiqi;
- sosial xidmət müəssisələri işçiləri üçün davamlı ixtisasartırma sistemi yaratmaq;
- pullu xidmətlər göstərən sosial xidmət müəssisələri yaratmaq üçün özəl investisiyaların cəlb edilməsi.

6. Mənzil-kommunal xidmətləri sahəsində:

- öz torpaqlarına qayıdan əhalinin keyfiyyətli mənzil şəraiti ilə təmin etmək;
- regional hədəf proqramları çərçivəsində mənzil tikintisinə investisiya qoyuluşu üçün bankların kredit resurslarının cəlb edilməsi;
- mənzil-kommunal xidmətlərinin dövlət-özəl tərəfdaşlıq sisteminə keçidinin həyata keçirilməsi;

7. Regionun sosial sahəsinə kiçik və orta sahibkarlığın cəlb edilməsi sahəsində:

- regional işsizliyin azaldılması;
- regionun nəqliyyat sektoruna investisiyaların maliyyələşdirilməsində iştirak etmək;
- tibb, idman, mədəniyyət müəssisələrinə investisiyaların maliyyələşdirilməsində iştirak etmək;
- tibb, təhsil, mədəniyyət müəssisələrinin fəaliyyətinə və maddi bazasının yenilənməsinə dəstək vermək;
- mədəni və asudə vaxtların təşkilində kömək göstərmək;
- əhali və müxtəlif səviyyəli idarə işçiləri üçün maarifləndirici layihələr həyata keçirmək.

Ümumiyyətlə, müasir şəraitdəki infrastruktur, dövlət tərəfindən dəstəklənən, qanunun aliliyinə əsaslanan, malların, işçi qüvvəsinin, maddi və maliyyə mənbələrinin sərbəst hərəkəti ilə vahid iqtisadi məkanın formalaşmasında əsas rol oynayan xüsusi bir institut kimi qəbul edilə bilər.

Beləliklə, Qarabağ regionu üçün ən vacib strateji vəzifə sosial sahənin və sosial infrastrukturun məqsədyönlü inkişafıdır. Çünki bu, insanların yaşaması üçün əlverişli şərait yaratmağı, əhalinin maddi və mənəvi ehtiyaclarının ödənilməsini, insanlar üçün yaşayış rahatlığını, regionun əhali və biznes üçün cəlbediciliyini təmin edir. Sosial infrastruktur əhalinin həyat səviyyəsini və müəyyən bir ərazidə yaşayan insan resurslarının keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Regiondakı sosial gərginliyin azaldılmasına və ərazinin əmək potensialının inkişafina kömək edir.

# III FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA İSTEHSAL VƏ SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Qarabağda regional infrastrukturun perspektiv inkişaf istiqamətləri

Bu gün dövlətin əsas məqsədi Qarabağda həyatı bərpa etmək, erməni terroruna məruz qalmış ərazilərimizi tez bir zamanda əlverişli vəziyyətə gətirməkdir. Qarabağın tərkib hissəsi olan rayonlarımızın iqtisadi fəaliyyətinin strukturu çoxşaxəlidir və güclü resurs potensialına malikdir. Regionda çevik və daha intensiv şəkildə infrastruktur obyektləri şəbəkəsinin yaradılması günün tələbidir. Burada iqtisadiyyatın perspektivli sahələrinin formalaşması və intensiv inkişafını kifayət qədər real hesab etmək olar (Əliyev T.N. 2020. s. 4).

Təsadüfi deyil ki, tikinti və bərpa işləri məhz infrastruktur layihələrindən başlayıb. Çünki bu ərazilərdə infrastruktur yaradılmadan tikinti işlərinin aparılması mümkün deyil. Bu səbəbdən də dövlət başçısı dəfələrlə bildirib ki, regionun inkişafi üçün birinci olaraq mükəmməl infrastruktur yaradılmalıdır. Hal-hazırda bu yöndə həyata reallaşdırılan layihələr hər sahəni əhatələyir. Onlar regionun həm iqtisadi, həm də sosial inkişafi üçün vacibdir.

İşğaldan sonrakı dövrdə ərazilərin bərpası və inkişafi ilə əlaqədar 2030-cu ilə qədər dövlətin iqtisadi siyasətinin sosial-iqtisadi inkişafının milli prioritetləri işlənib və təsdiq edilib. Qarşıdakı 10 il üçün inkişafımızın növbəti mərhələsi üçün yol xəritəsi sayılan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafin milli prioritetləri" sənədinə əsasən, təsbit olunan beş prioritetdən biri də məhz azad edilən regionların əhalinin qayıdışının daha sürətli şəkildə təminatı, məskunlaşmanın dayanıqlığı və yerləşilmiş ərazilərin iqtisadi fəaliyyətə yenidən inteqrasiyasını nəzərdə saxlayır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də Qarabağın dirçəlişinin gerçəkləşdirilməsi ilə əlaqədar qeyd edilir ki, öncəki vaxtlarda olduğu kimi, işğaldan azad olunan ərazilərə geri qayıdan insanların təhlükəsiz şəkildə yaşayışı təmin olunmalı, ölkənin bu regionu respublikanın ən abad guşələrindən olmalıdır. Müasir həyatın özülü olan layiqli yaşamın bərpası mqəsədiylə hər sahələrdə quruculuq məqsədinə nail olunmalıdır. Bu,

həvəsləndirmələrin sayəsində və dövlət-özəl əməkdaşlığın inkişafi çərçivəsində icra edilməlidir. Yalnız bu cür şəraitdə işğaldan azad olunan bölgələrin Azərbaycanın böyük gələcəyinə bütövlükdə yaxınlaşmasını reallaşdırmaq mümkün olar.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev" 2021-ci ildə fevralın 26-da xarici və yerli media nümayəndələri üçün təşkil olunmuş mətbuat konfransında jurnalistin verdiyi uyğun sualına cavab olaraq bildirib: "Məskunlaşma üçün, ilk növbədə, ərazilərin minalardan təmizlənməsi başa çatdırılmalıdır. Digər tərəfdən, işğal zamanı burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur. Praktiki olaraq bütün kəndlər dağıdılıb. Artıq "ağıllı kənd" layihəsinə başlanılıb. Bu, torpaqlarından qovulmuş soydaşlarımız üçün işğaldan azad edilmiş ərazilərdə maksimum əlverişli imkanlar yaratmaq məqsədi daşıyır" (https://xalqqazeti.com/mobile/az/news/71975).

Sürətli sosial-iqtisadi inkişafin vacibliyi münaqişədən sonrakı dövrdə insanların tədricən məskunlaşmasına və onların yardım asılılığından dərhal azad edilməsinə səbəb olur. Eyni zamanda, təhsil, səhiyyə və telekommunikasiya vasitələrinin koordinasiyalı bərpası insanların adaptasiyası prosesini sürətləndirir. Həmçinin, məşğulluğun artırılması üçün kiçik və orta biznesin dəstəklənməsi, ev təsərrüfatlarının inkişafina bilavasitə gətirib çıxaracaq təşəbbüslərin aktivləşdirilməsi məqsədəuyğundur. Bundan əlavə, iqtisadiyyatın canlanmasına töhfə verəcək bank və turizm sektorlarına xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə, bir sıra tövsiyə və təkliflərin nəzərdən keçirilməsi bu proseslərin daha səmərəli təşkilinə imkan verə bilər:

- münaqişədən sonrakı situasiyada hər bir ölkənin sosial-iqtisadi inkişaf modelinə və işğaldan azad edilmiş ərazilərin yüksək potensiallı və sosial-iqtisadi inkişaf perspektivlərinə malik rayonlarına uyğun olaraq yenidənqurma və dirçəliş konsepsiyasına üstünlük verilməsi daha məqsədəuyğundur;

- bərpa olunan ərazilərin sosial-iqtisadi inkişafi məqsədlərindən çıxış edərək, maliyyə təminatının və investisiyaların cəlb edilməsinin zəruri mexanizmlərinin həlli üçün səmərəli tədbirlər həyata keçirilməlidir;

- dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin və xərclənmiş

maliyyə vəsaitlərinin şəffaflığı, səmərəliliyi və məqsədyönlü istifadəsi işğaldan sonrakı dövrdə həyata keçirilən davamlı və sistemli tədbirlərin səmərəliliyinin maksimuma çatdırılmasını, məcburi köçkünlərin və bütövlükdə cəmiyyətin məmnunluğunu təmin etməlidir.

Ümumiyyətlə, iqtisadiyyatın müstəqil bir qolu kimi, infrastruktur iş yerləri açır, dövlət və özəl investisiyalar cəlb edir və ümumi tələbin artmasına təkan verir. Tənzimləmə funksiyasını yerinə yetirən infrastruktura qoyulan dövlət investisiyaları regional sənaye siyasətinin aləti rolunu oynayaraq, resursların yenidən bölüşdürülməsinə imkan verir və iqtisadiyyatın müəyyən sahələrinin genişlənməsi və ya müəyyən ərazilərin inkişafi üçün əlverişli şərait yaradır. Bu, ehtiyatların və istehsal amillərinin toplanmasına və cəmləşməsinə gətirib çıxarır. İnvestisiya layihələrinin icrası, əhəmiyyətli kapital qoyuluşlarının cəlb edilməsini tələb edir ki, bu da öz növbəsində regiondakı köməkçi sahələrə tələbatı artırır. Sənaye sahələrinə, birbaşa institusional infrastruktura investisiyanın cəlb edilməsinin artırılması məsələsi bazarın hər bir subyektləri üçün prioritetlərdən olmalıdır.

Postkonflikt ərazilərin bərpası və inkişaf etdirilməsi ölkə iqtisadiyyatına əlavə qatqılar vermək potensialına malikdir (Müzəffərli N. 2000, səh 125). Hesab edirik ki, kənardan cəlbolunan investisiyalarla yanaşı, ilk növbədə, ölkəmiz özünün iqtisadi gücünə və maliyyə potensialına xüsusi diqqət yetirməlidir. Bu ərazilərin faydalı formada bərpa edilməsi ölkə iqtisadiyyatının imkanlarının yüksəldilməsinə əlavə mənbələr formalaşdıracaqdır, xüsusilə, regional iqtisadi inkişafda yeni metodoloji-praktiki yanaşmaların ortaya çıxacağı mümkündür.

İnkişaf etmiş infrastruktur həm də fərdlərin yaşayış şəraitini yaxşılaşdırır. İnsanların gündəlik fəaliyyəti ilə birbaşa əlaqəlidir və onların keyfiyyəti və həyat səviyyəsinə birbaşa təsir göstərir. Siyasi baxımdan yaxşı inkişaf etmiş infrastruktur ölkənin müdafiəsi və təhlükəsizliyi üçün əsasdır (Зимин А.И. 2013, c. 11). İnfrastruktura investisiya qoyuluşu onun tənzimləmə funksiyası ilə əlaqəli olduğundan həyata keçirilən istiqamət və hədəflər gələcək iqtisadi sistemin mahiyyətini müəyyənləşdirir, regional iqtisadiyyatın müəyyən sahələri üçün stimul və məhdudiyyətlər yaradır. Təkcə formalaşmış infrastruktur regional iqtisadiyyatın

strukturuna təsir göstərmir. Bunun üçün investisiya mənbələri də mühüm rol oynayır. İnfrastruktura investisiya qoymaq üçün istehsal sahələrindən kapitalın çıxarılması onların böyüməsini ləngidə bilər və bir sıra problemlərə və region iqtisadiyyatının tarazsız inkişafina səbəb ola bilər. Belə ki, xarici investisiyaların və ya kreditlərin cəlb edilməsi, fondların istifadəsi üçün müəyyən bir faizin ödənilməsi ilə əlaqələndirilir ki, bu da yaradılmış infrastruktur obyektindən gözlənilən gəlirin xərclərdən az olmasına səbəb ola bilər. Ərazi amili investisiya səmərəliliyi üçün vacib bir cəhətdir. Söhbət bir tərəfdən müəyyən bir ərazinin infrastruktur obyektlərinə olan ehtiyaclarını, digər tərəfdən istismarı və səmərəli istifadəsi üçün şəraitin mövcudluğunu nəzərə almaqdan gedir.

Qarabağ sərmayə yatırımı bölgəsi kimi də xüsusi diqqət kəsb edir. İtaliya, Türkiyə, Rusiya, Macarıstan, İran, Pakistan və s. ölkələr birinci gündən Qarabağdakı layihələrdə iştirakla maraqlandıqlarını bildiriblər. Pakistan, Türkiyə və İtaliya şirkətlərinin artıq bir neçə layihələr üzrə işə başlaması bunun əyani sübutudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, ilk olaraq, Qarabağın azad edilməsi yolunda 30 il boyunca aparılmış mübarizədə Azərbaycanın ədalətli işini dəstəkləmiş ölkələrin şirkətləri ərazilərin bərpa edilməsi üzrə layihələrinin icrasında üstünlük hüququndan fyaralanacaqlar.

Fikrimizcə, infrastrukturun uzunmüddətli inkişafi və modernləşdirilməsinin 4 əsas istiqaməti vardır:

1. İnkişaf və modernləşdirmə ilə bağlı prioritetlərin seçilməsi. Bir qayda olaraq, istehlak və istehsal edən regionlar arasında əlaqə vasitələrinin yaranmasını nəzərdə tutur.
2. İnvestisiya imkanlarının qiymətləndirilməsi, infrastruktur layihələri üçün maliyyə mənbələrinin müəyyənləşdirilməsi və formalaşdırılması.
3. Regional infrastruktura münasibətin formalaşması. İnfrastruktur obyektləri regionun ehtiyaclarını mümkün qədər təmin etməlidir. Bununla əlaqədar olaraq infrastruktur obyektlərinin layihələndirilməsi, maliyyələşdirilməsi, tikintisi, istismarı və təmiri proseslərinə obyektiv və təsirli dövlət nəzarəti tələb olunur.
4. İnfrastrukturun inkişafi üçün optimal konsepsiyanın təhlili və seçimi. İnfrastruktur

layihələrinin həyata keçirilməsində dövlətin və özəl sektorun iştirakının balanslaşdırılmış qarışıq konsepsiyasını formalaşdırmaq lazımdır (Калинин В.В. 2011, c.37).

Qeyd edək ki, institusional infrastruktur sənayenin fəaliyyət göstərməsi və inkişafinda əsas müəyyənedici amildir. Müasir iqtisadi şəraitdə iqtisadi uğur resursların necə istifadə olunmasından və bu resursların nə dərəcədə vacib olmasından asılıdır. Əhəmiyyətli institusional infrastruktur məhdud resurslardan səmərəli istifadəyə təsir göstərir. Məsələn, yüngül sənaye məhsulları iqtisadiyyatın bütün sahələrində istifadə olunduğu üçün konkret sənaye ilə sıx bağlıdır və buna görə də mənfi iqtisadi proseslərdən əhəmiyyətli dərəcədə təsirlənir. Ölkədə və dünya iqtisadiyyatında baş verən dövri böhranlar iqtisadiyyatın ümumi inkişafina, sənayenin inkişafina mənfi təsir göstərir. İnstitusional modernləşmə olmadan belə uğursuzluqların qarşısını almaq mümkün deyil. Bu yanaşma təkcə sənaye sahələri üçün deyil, iqtisadiyyatın bütün sahələri üçün aktualdır və iqtisadiyyatda islahatların aparılması və ya dəstəklənməsi üçün həlledici əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, qurumların əsas məqsədi məhdud resurslar, tələb və təklif şəraitində maksimum effekt əldə etməkdir, bu məqsədlərə nail olmaq yalnız rəsmi və qeyri-rəsmi qurumların birgə fəaliyyəti ilə mümkündür. Rəqabətin güclü olduğu və dövriliyin təsir etdiyi bazar iqtisadiyyatında sənaye məhsullarına tələbi stimullaşdırmaq üçün effektiv vasitələrə malik olmaq və ondan istifadə etmək lazımdır. Avropada yerli məhsullara tələbatın yaradılması, onun dəstəklənməsi, güzəştli kredit proqramlarından istifadə, müvafiq maliyyə münasibətləri, fiziki şəxslər üçün lizinq institutları var ki, belə əlverişli şərait yaradılır. Nəticədə bütün bunlar milli istehsalçıların və dövlətin mənafelərinə xidmət edir. Tələbin yaradılması həm özəl biznes, həm də dövlət müəssisələrinin inkişafi üçün institusional infrastrukturun və bazarın inkişafinın mühüm hissəsidir. Sənaye məhsullarının bahalaşması tələbatın artmasının ciddi və qlobal problemidir. Onun ehtimal olunan səbəbləri milli valyutanın məzənnəsinin dəyişməsi, dövlət xərclərinin və investisiyaların azalmasıdır. Şirkət öz məhsullarının maksimum cəlbediciliyini təmin etmək üçün malların minimum maya dəyərinə nail olmalıdır. Həll edilməli olan problemlərdən

biri də əmək resurslarının xərclərinin yüksək qiyməti və istehsalat kadrlarının peşəkarlığının aşağı olması problemidir.

## 3.2. Qarabağda istehsal və sosial infrastruktur sahələrinin yaradılması və inkişafı

İnfrastrukturun inkişafi sahəsində beynəlxalq və yerli təcrübənin təhlili üç əsas alət qrupundan istifadə etməyi nəzərdə tutur: dövlət hesabına infrastruktur obyektlərinin tikintisi; dövlət-özəl tərəfdaşlıq mexanizmlərindən istifadə edilməsi; müxtəlif güzəştlərin verilməsi, habelə infrastruktur obyektlərinin inkişafi üçün özəl kapitalın cəlb edilməsi məqsədilə zəruri inzibati şəraitin yaradılması.

İnfrastruktur potensialının inkişafını dəstəkləyən alətlər və tədbirlər kimi: regional səviyyədə sosial-iqtisadi inkişaf proqramları çərçivəsində ticarətin inkişafi proqramlarının hazırlanması, kommunal və nəqliyyat infrastrukturunun inkişafının strategiyalarını formalaşdırmağa imkan verən regional infrastruktur proqramlarının işlənib hazırlanması və həyata keçirilməsini; ticarət, logistika və digər analoji təşkilatlar üçün zəruri torpaq sahələrinin və ərazilərin ayrılmasını nəzərdə tutan şəhərsalma planlaşdırılmasını xüsusilə qeyd etmək olar. Regionların inkişaf strategiyaları əsas problemlərin həllinə və regionların inkişafının prioritet istiqamətlərinin icrasına yönəldilməlidir. Strategiyalar özündə regionların ərazisinin infrastrukturla təminatının qiymətləndirilməsini əks etdirməlidir. Xüsusilə də azad olunmuş rayonlarda "sıfirdan" yaradılan iqtisadiyyatın bir çox sahələri və sektorları üçün inkişaf etmiş infrastruktur uğurun əsas amillərindən birinə çevrilir və biznesin bu və ya digər regionun ərazisində yerləşdirilməsi üçün vacib şərtə çevrilir. Beləliklə, azad olunmuş bütün regionlar üçün strateji planlaşdırma bölgənin sosial-iqtisadi inkişafının proqnozlarına uyğun olaraq infrastruktur obyektlərinin qabaqlayıcı inkişafina yönəldilməlidir. Belə planlaşdırma ticarət sahəsinin infrastruktur problemlərini həll etməyə imkan verəcəkdir. Regionların inkişafi üzrə strateji planlar əsasında hər bir rayonun xüsusiyyətini nəzərə alan infrastrukturun, o cümlədən ticarət infrastrukturunun inkişafi üçün ayrı-ayrı proqramlar formalaşmalıdır. Azad olunmuş rayonların yüksək aqrar-sənaye yönümlü inkişaf

potensialını nəzərə alaraq məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə həmin regionlarda vacib sosial struktur rolunu oynayan istehlak kooperasiyası sisteminin dirçəldilməsi məqsədəuyğun hesab oluna bilər. İstehlak kooperasiyasının missiyası (məramı) azad olunmuş rayonlarda və ilk növbədə, kənd yerlərində sosial infrastrukturun inkişaf etdirilməsindən, istehlak malları bazarının sabit inkişafını təmin etməkdən ibarət olmalıdır. Sahənin effektiv inkişafının təmin etdirilməsi istiqamətlərindən biri kimi yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə elektron kommersiyanın inkişafını əsaslandıran infrastruktur elementlərinin, həmçinin elektron ödəniş sistemlərinin tətbiqi mexanizmlərinin formalaşdırılması kimi perspektiv strategiyalar qəbul edilməlidir.

Enerji sektorunun inkişafi dövlətin iqtisadi və sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Enerji sektoru həmişə ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edib və olacaq. Təhlillər göstərir ki, ölkənin bazar iqtisadiyyatına keçidi və yeni müəssisələrin yaradılması ilə əlaqədar elektrik enerjisinə ehtiyac hər il 5 faiz artacaq. Ona görə də mövcud olan elektrik stansiyalarının gücünün bərpası və yenilərinin tikintisi üçün tədbirlər görülür. Əhalinin və iqtisadiyyatın elektrik enerjisinə ehtiyacın yüksəlməsi ilə bağlı olaraq gündəlik yüklənmə qrafikində pozuntular durmadan artır. SES-lərin hidravlik gücü olmadığına görə, istilik elektrik stansiyaları yükün tənzimlənməsinə cəlb olunur ki, bu da səmərəliliyin azalmasına və enerji sisteminin etibarlılığının azalmasına səbəb olur. Ona görə də energetikanın inkişafının əsas istiqamətlərindən biri hidroenergetika olmalıdır. Azərbaycanda kifayət qədər istifadə olunmayan iqtisadi cəhətdən səmərəli hidroenergetika potensialının olması daha səmərəli qurğuların tikintisi üçün genişmiqyaslı proqramın formalaşdırılmasına imkan verir.

Eyni zamanda, yeni su və istilik elektrik stansiyalarının tikintisi, hazırkı enerji bloklarının modernləşdirilməsi, alternativ enerji mənbələri hesabına gücün artırılması üzrə işlərin sürətləndirilməsi, eləcə də elektrik enerjisinin ötürülməsini təmin etmək üçün yüksək gərginlikli paylayıcı xətlərin istifadəyə verilməsi və elektrik enerjisinin bölüşdürülməsi və enerji təchizatının yaxşılaşdırılması, ölkənin

bütün inzibati rayonlarında paylayıcı şəbəkələrin və transformator yarımstansiyalarının təchiz edilməsi nəzərdə tutulur. Elektrik enerjisinin istehsalı, ötürülməsi və bölüşdürülməsi sahəsində bazar iqtisadiyyatı prinsiplərinə uyğun idarəetmə sisteminin yaradılması məqsədilə bu sahədə bərpa işləri davam fasiləsiz etdirilməlidir.

Ölkədə nəqliyyatın inkişafi iqtisadi inkişaf üçün böyük əhəmiyyət kəsb edir. Nəqliyyat xidmətləri çox olduqda məhsulların maya dəyəri aşağı düşür. Bu baxımdan dövlət üçün vacib əhəmiyyət kəsb edən məsələ nəqliyyat sisteminin bazar iqtisadi şərtlərinə əsasən iqtisadiyyatın başqa sahələri ilə səmərəli və paralel şəkildə inkişaf etdirilməsi zərurətidir. Bu məqsədlə nəqliyyat sektorunun subyektlərinin dövlətdən asılılıq səviyyəsinin azaldılmasına və onların gəlirli işləməsi üçün səmərəli şəraitin yaradılmasına diqqət artırılmalıdır. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri üzrə ölkənin tranzit imkanlarının artırılması, daşımaların əhəmiyyətli hissəsinin, yəni 61,6%-nin avtomobil nəqliyyatı ilə həyata keçirilməsi yol şəbəkəsinin beynəlxalq standartlara uyğun inkişafını və müvafiq tədbirlərin görülməsini zəruri edir (Kərimli İ. 2020, s. 21). Bazar iqtisadi münasibətləri şəraitində nəqliyyat sisteminin inkişafi sahəsində həyata keçirilən tədbirlər ölkənin iqtisadi inkişafi üçün real zəmin yaratmışdır. Son illərdə Azərbaycanda nəqliyyat xidmətləri bazarı formalaşmış, dövlətə məxsus avtomobil nəqliyyatı müəssisələri özəlləşdirilmiş və bazar iqtisadi münasibətlərinə uyğun olaraq nəqliyyat sahəsində dövlət idarəçiliyi yaradılmışdır. Bununla bərabər, ölkənin nəqliyyat infrastrukturunun mühüm tərkib hissəsi olan yol şəbəkəsində də xeyli problemlər var. Avtomobil yolları şəbəkəsinin dünya standartlarına uyğunluğu, ölkənin avtomobil nəqliyyatının artım tempi və nəqliyyat axınının intensivliyi, yol infrastrukturunun iqtisadiyyatın və əhalinin yüksək keyfiyyətli nəqliyyat xidmətlərinə olan tələbatını ödəmək üçün lazımi səviyyədə olmaması, ölkənin tranzit potensialı yol şəbəkəsinin beynəlxalq yol şəbəkəsinə qoşulmasına maneələr törədir və onların dərhal aradan qaldırılmasını tələb edir.

Ölkənin nəqliyyat sektorunun gələcək inkişafi Dünya Bankı və "Asiya İnkişaf Bankı"nın köməyi ilə reallaşdırılacaq texniki və institusional kömək layihələrində

öz əksini tapır. Layihə sərhəd və gömrük islahatlarına dəstək, nəqliyyat sektoruna kömək və dövlətə məxsus nəqliyyat müəssisələrinin reabilitasiyası, inteqrasiya olunmuş tranzit idarəetməsi, əsas Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin təkmilləşdirilməsi və bir sıra komponentləri əhatə edir. Layihələr tənzimləmə və kommersiya funksiyalarının ayrılması yolu ilə nəqliyyat sektorunun restrukturizasiyasını, nəqliyyat kompleksinin idarə edilməsində mərhələli islahatların aparılması yolu ilə müvafiq dövlət aktivlərinin azaldılmasını nəzərdə tutur.

Daha da önəmlisi odur ki, Qarabağ regionunun nəqliyyat-kommunikasiya sisteminin yenidən qurulması üçün hazırlanan nəqliyyat logistikası layihəsi Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə (Mehri dəhlizi) birləşdirilməsi və beləliklə, Azərbaycan Respublikası arasında birbaşa dəmir yolu və avtomobil yollarının çəkilməsi kimi strateji əhəmiyyətli işlərə başlanmışdır.

Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolunun təməlinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qoyulması mühüm hadisədir. Bu dəmir yolu xətti təkcə regionun deyil, bütün regionun gələcək inkişafi üçün strateji əhəmiyyət kəsb edir. Bütövlükdə uzunluğu 100 km olan sözügedən nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş torpaqlara maneəsiz gediş-gəlişinin təmin edilməsində mühüm rol oynayacaqdır. Ən əsası isə bu infrastruktur Türkiyəyə gedən Bakı-Tbilisi-Ceyhandan sonra Türkiyəni ölkəmizlə birləşdirən 2-ci dəmir yolu şəbəkəsinə çevriləcək. Bu, həm də Azərbaycanın digər hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqələrin qurulmasına mühüm töhfə verəcək. Beləliklə, Azərbaycan təhlükəsiz tranzit ölkə kimi sonrakı mərhələyə qədəm qoyur. Bununla yanaşı bu infrastruktur türk dünyasını birləşdirir və yaxın gələcəkdə regionun türkdilli ölkələri arasında dərin iqtisadi və siyasi birliyin yaranmasına gətirib çıxarır.

Bu yolun strateji əhəmiyyəti, ilk növbədə, şimal-cənub və şərq-qərb istiqamətindən dəhlizlər vasitəsilə Azərbaycana daxil olan yük axınları Bakı Beynəlxalq Dəniz limanında cəmləşərək buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə (bu yolun yeni bir marşrutu Qarabağdan keçməklə Mehri dəhlizi ilə Naxçıvana

və Türkiyəyə, daha sonra isə Avropaya) Avropa istiqamətini və yaxud gəmilər vasitəsilə şərq istiqamətini təmin edən səmərəli logistika zəncirini formalaşdırmaqdan ibarətdir. Birinci marşrut üzrə Qarabağ ərazisində bərpa ediləcək və yaxud Qarabağ regionunun nəqliyyat logistika əlaqələri və beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulma imkanları yenidən qurulacaq nəqliyyat logistika sistemi və bu sistemin çoxcəhətli sxemi diqqəti daha çox cəlb etməlidir (Kərimli İ. 2020, səh. 21). Nəzərə almalıyıq ki, dəmir yolu və şose yolunun üstünlük təşkil edəcəyi Qarabağ regionunda yolların aşağıdakı üç istiqamətdə bərpa olunması və yenidən qurulması daha səmərəli sayıla bilər: Bakı – Yevlax – Bərdə – Ağdam – Xankəndi – Şuşa; Bakı – Yevlax – Ağdam – Füzuli – Cəbrayıl – Zəngilan – Mehri – Culfa – Naxçıvan; Bakı – Yevlax – Gəncə – Goranboy – Kəlbəcər – Laçın. Bütün bunlarla yanaşı, Qarabağın strateji əhəmiyyətli ayrı-ayrı inzibati-ərazi vahidlikləri arasında ikitərəfli şose və yaxud dəmir yolunun çəkilişi də məqsədəuyğun sayılır. Məsələn, hazırda Füzuli rayonu ilə Şuşa səhəri arasında müasir tələblərə cavab verən 4-6 zolaqlı şose yolunun çəkilişi başa çatmaq üzrədir. Fikrimizcə, dünyanın bir çox qabaqcıl ölkələrinin yerüstü nəqliyyat çəkilişinə dair təcrübəsindən müəyyən nəticə çıxarmalı, şose yolu ilə müqayisədə dəmir yolunun çəkilişində yolun keçdiyi yaşayış məntəqələrinin coğrafi və strateji əhəmiyyəti daha çox nəzərə alınmalı, daha üstün mövqeyə malik məntəqələr nəqliyyat qovşağı və yaxud paylaşdırıcı yol ayırıcıları kimi qurulmalıdır. Qarabağ regionunun bütün ərazisini əhatə edəcək dəmir və şose yollarının çəkilişi ilə əlaqədar yuxarıda göstərilən üç istiqamətdə öz ifadəsini tapan nəqliyyat-dayanacaq məntəqələri sırasında nəqliyyat-qovşaq və yaxud paylaşdırıcı dayanacaq stansiyaları ayrılaraq böyük hərflərlə yazılmış yaşayış məntəqələri hesab edilir ki, bunlar: BAKI, YEVLAX, GƏNCƏ, FÜZULİ, CULFA və NAXÇIVAN hesab edilir. Culfa və Naxçıvan qovşaq stansiyaları regiondaxili nəqliyyat yollarının ayırıcısı kimi deyil, daha çox beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalar üzrə formalaşan qovşaqlar hesab edilir (Kərimli İ. 2020, səh. 21). Naxçıvan dəmir yolu və şose yolu Türkiyəyə, oradan isə Avropaya, Culfa qovşağı isə İrana, oradan isə şərqə doğru istiqamət götürəcəkdir. Qarabağ regionunun təbii iqlim, sosial-iqtisadi füsunkarlığının cəlbediciliyi bölgənin iqtisadi quruculuğu ilə yanaşı,

müasir nəqliyyat və logistika infrastrukturun yaradılması layihəsinə hava limanlarının tikintisi də daxil edilmişdir. Fərəhlə demək olar ki, həmin istiqamətdə tikinti işlərinin Füzuli rayonunun ərazisində başlanılmasına start verilməsi barədə ölkə başçısı İlham Əliyevin hava limanı tikilən ərazidən birbaşa canlı yayımla verdiyi məlumat diqqəti cəlb etmiş, hava limanının beynəlxalq standartlara uyğun tikiləcəyi və beynəlxalq hava limanı səviyyəsində olacağını və bununla beynəlxalq nəqliyyat əlaqələrinə qovuşacağını bildirmişdir. Eyni zamanda ölkə başçısı Qarabağın Laçın və Qubadlı rayonlarının ərazisində də daxili uçuşlar üçün hava limanının tikintisinin də nəzərdə tutulduğunu və yaxın illərdə həmin ərazidə tikinti işlərinə başlanıla cağını bildirmişdir. Qarabağ regionundan keçərək Zəngəzur dəhlizi ilə Naxçıvanın Culfa nəqliyyat logistika qovşağı ilə Azərbaycandan İrana, oradan isə şərqə doğru və əksinə, Avropaya doğru hərəkət marşrutu Azərbaycan üçün ikinci beynəlxalq əhəmiyyətli marşrut Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi ilə birləşəcəkdir. İranla əlaqələnən, şərqə doğru və əksinə, Avropaya doğru istiqamətlənən və uzun illərdir ki, işləyən birinci beynəlxalq əhəmiyyətli nəqliyyat logistika marşrutu, Bakı – Astara (Azərbaycan) – Astara (İran) – Rəşt – Qəzvin marşrutudur ki, bu yol öz əhəmiyyətini saxlamaqdadır. Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyəni əlaqələndirən, oradan da Avropaya və əksinə istiqamətlənən Bakı – Tbilisi – Qars dəmir yolu, Bakı – Tbilisi – Ərzurum qaz, Bakı – Tbilisi – Ceyhan neft marşrutları Azərbaycan üçün önəmli olan üçüncü beynəlxalq əhəmiyyətli nəqliyyat logistika marşrutu hesab edilir. Hər üç marşrut dünya miqyaslı beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmalarının bütün obyektiv maddi-texniki və sosial-iqtisadi əsasları yaradılmış və bundan sonra da yaradılacaqdır. Şərq – Qərb və Şimal – Cənub kimi iki böyük beynəlxalq nəqliyyat dəhlizinə Azərbaycan ərazisinin çıxış imkanları ərazinin coğrafi mövqeyi və strateji əhəmiyyəti ilə bağlı olsa da, bütün hallarda hər iki beynəlxalq nəqliyyat dəhlizinin qədim İpək yoluna əsaslanması öz nəticəsini vermiş və bu gün bütün reallığı ilə özünü göstərir. Bütün tarixi reallıqlar çox qiymətlidir, lakin daha qiymətlisi iqtisadiyyatla bağlıdır. Dəhlizlərlə yük və sərnişin daşımalarında nəqliyyat logistika əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, dəmir yolu, avtomobil yolu, hava yolu nəqliyyat

xidmətləri ilə beynəlxalq daşımaların həcminin artırılması, vaxtın qısaldılması, tranzit daşımaların dəyərinin minimuma endirilməsidir. Beləliklə, danışılan layihənin həyata keçməsiylə Azərbaycanın regionda strateji mövqeyi yüksəlir, həmçinin iqtisadi potensialı daha da möhkəmlənir.

Prioritetlər sırasında beynəlxalq hava limanlarının və yeni dəmir yolu xətlərinin tikintisi, həmçinin mobil rabitə sistemlərinin yaradılması da mühüm yer alır.

Əhalinin sosial müdafiəsinin təmin edilməsi, təhsilə, səhiyyə xidmətlərinə çıxışın təmin edilməsi məqsədilə regionda xəstəxanaların, təhsil müəssisələrinin, sosial xidmət mərkəzlərinin, müxtəlif idman yarışlarının keçiriləcəyi idman müəssisələrinin yaradılması buraya əhalinin köçürülməsi işinin başlanmasından əvvəl təşkil edilməlidir. Köçürüləcək əhalinin sayına və sıxlığına uyğun olaraq region üzrə məktəbəqədər və orta təhsil müəssisələrinin, 1 ali təhsil müəssisəsinin, 9 xəstəxana və 27 poliklinikanın açılması təklif olunur. Regionda əlilliyi olan şəxslərin bərpa mərkəzinin və reabilitasiya mərkəzinin açılması məqsədəuyğundur. Bərpa və yenidənqurma işlərinə 2022-ci ildə 2,2 milyarda manat vəsaitin ayrılması çərçivəsində bu sahədə infrastruktur layihələrinin icrası real görünür.

XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinin keçidi və qurulması, intellektual potensialın inkişafi və elektron hökumətin yaradılması, sosial-iqtisadi inkişafin gücləndirilməsi prioritet məsələlərdən birinə çevrilib. Müasir dövrdə və gələcəkdə İKT-nin əhəmiyyəti ön plana çıxıb, ölkənin milli fəaliyyətinin və elektron strategiya proqramlarının əsas müddəalarını formalaşdırıb. İKT sektorunun inkişafi ölkə rəhbərliyi tərəfindən neft-qaz sənayesindən sonra 2-ci prioritet kimi müəyyən edilir. Fikrimizcə, informasiya-kommunikasiya texnologiyaları və rabitəsinin inkişafi sahəsində reallaşdırılan tədbirlər elektron sənəd dövriyyəsinin, elektron ticarətin, elektron xidmətlərin və başqa bu kimi fəaliyyətlərin həyata keçirilməsi üçün zəruri texniki və texnoloji dəyişikliklərin tətbiqinə yönəldilməlidir. Sürətin artırılması və informasiyanın verilməsinin xərclərinin azaldılması ölkənin rəqabət imkanına müsbət təsir göstərəcək. İKT-nin inkişafi sahəsində aşağıdakı vəzifələr həll edilməlidir:

- şəffaf, effektiv və nəzarət olunan yerli özünüidarəetmə və dövlət idarəçiliyi üçün elektron hökumətin qurulması;

- sosial institutların və vətəndaşların məlumat əldə etmə, istifadə etmək və yaymaq hüquqlarını təmin etməkdən ötrü müvafiq şərairin yaradılması;

- təkmilləşmiş informasiya-kommunikasiya infrastrukturunun qurulması, bütöv milli elektron informasiya məkanının formalaşdırılması, informasiya-kommunikasiya xidmətlərinin genişləndirilməsi;

- elektron hökumət infrastrukturunun başlıca komponentlərinin formalaşdırılması və regionun informasiya təhlükəsizliyinin təmin olunamsı;

- regionun qlobal elektron informasiya məkanına inteqrasiyası;

-yerli proqram təminatının yaradılması, informasiya-kommunikasiya texnologiyaları məhsullarının inkişafi (İKT sənayesi).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə müvəqqəti xüsusi idarənin yaradılması haqqında sərəncamına əsasən, "Azərkosmos" ASC müvafiq dövlət orqanlarının müraciətləri əsasında onlara Qarabağın peyk şəkillərini, digər geoinformasiya məlumatlarını və müxtəlif məzmunlu təhlilləri təqdim etməlidir. Artıq Şuşada ilk 4G şəbəkəsi və mobil operator fəaliyyət göstərir. İşğaldan azad edilmiş bütün ərazilərin yüksək sürətli müasir mobil şəbəkə ilə əhatə olunması, fasiləsiz rabitə xidmətlərinin bərpası və radio və televiziya yayımının genişləndirilməsi məqsədilə yaradılmış LTE şəbəkəsi, yüksək keyfiyyətli nəqliyyat, telekommunikasiya, poçt və müasir rabitə ilə təmin edən texniki infrastruktur, sərnişin xidmətləri bu rayonun inkişafi üçün mühüm əhəmiyyət kəsb edir ki, bu da inkişafa təkan verməklə yanaşı, məşğulluq məsələlərinin həllinə də xidmət edəcəkdir (Əliyev T.2022.səh. 33).

Qarabağın turizm potensialı çox zəngindir, turizmin bir çox növlərinin - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafi üçün bütün imkanlar var. Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafi üzrə strategiya və konsepsiya hazırlayıb. Kəlbəcərdə ənənəvi turizmlə yanaşı, qış və sağlamlıq turizmini də inkişaf etdirmək olar. Mədəniyyətin beşiyi sayılan Şuşada festivalların keçirilməsi, Ağdamın işğalının nəticələrinin

ictimai nümayişi, işgüzar turizmin təşkili nəzərdə tutulub. Xocavənd rayonunun da xüsusi turizm potensialı var. Tuğ və Hadrutun şərab marşrutuna daxil edilməsi daha düzgündür.

Qarabağ tarixini saxtalaşdıran erməni yalanlarının ifşa olunmasında Azərbaycan Turizm Bürosu tərəfindən tamamlanan və yaxın vaxtlarda ictimaiyyətə təqdim olunacaq yeni "Qafqaz Albaniyası turizm marşrutu" da mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını tədqiq edən alimlərin məsləhət və tövsiyələrinə əsaslanır. Alban mədəniyyətinin marşrutu Azərbaycanın üç əsas dəhlizini - Gəncə-Qazax, Bakı-Şəki-Zaqatala və Qarabağı əhatə edir. Qarabağda daha çox alban mədəniyyətinin izləri var. Qafqaz Albaniyasının zəngin irsi kimi burada məbədlər, kilsələr, adət-ənənələr və s. vardır. Onu da vurğulayaq ki, qədim alban mədəniyyətinin izi ilə yaradılacaq turizm marşrutu ölkəmizin, eləcə də Qarabağın zəngin-tarixi turizm potensialının populyarlaşdırılmasında xüsusi əhəmiyyət daşıyacaq.

Qarabağın mövcud olan turizm potensialının təbliği üçün lazımi turizm infrastrukturunun yaradılması istiqamətində intensiv işlər aparılır. Qeyd edək ki, turizmin iqtisadi yönü ilə bərabər, reklam tərəfi də var.

Turistlər Qarabağda dincələcək, təbiətin gözəlliyindən, əlverişli mühitin yaratdığı mədəniyyət və tarixi abidələrdən həzz almaqla yanaşı, Ağdamın işğalının nəticələrini nümayiş etdirən eksponat kimi nümayiş etdiriləcək bəzi tikililərlə də tanış ola biləcəklər. Ümumiyyətlə, Qarabağda turizmin inkişafi ilə bağlı geniş planlar var. Yaxın 4 ildə yerli və xarici turistləri də nəzərə alsaq, Qarabağın 1 milyon insan qəbul edəcəyi gözlənilir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İnfrastruktur cəmiyyətin artan tələbatına uyğun olmaqla obyektiv şəkildə formalaşmışdır. Tarixən sosial inkişaf formasiyaları bir-birini əvəzlədiyi kimi, infrastrukturlar da öz növbəsində sadədən mürəkkəbə doğru yüksəlmiş, struktur tədricən dəyişərək zənginləşmişdir. İqtisadi tərəqqinin yüksək səviyyəsinə baxmayaraq, infrastruktur özünəməxsusluğu ilə təkmilləşməyə davam edir.

İstehsalın fasiləsiz fəaliyyətini təmin etmək üçün infrastrukturun bütün sahələri normal şəkildə fəaliyyət göstərməlidir. Sosial və iqtisadi həyatda infrastrukturun inkişafının lazım olan səviyyədə olmaması onun xidmət etdiyi başlıca istehsal sahəsinin geri qalması ilə nəticələnə bilər. İnfrastrukturun normal fəaliyyət göstərməsi bir tərəfdən məhsuldar qüvvələrin inkişafina, digər yandan da ümumi daxili məhsulun artmasına, təkrar istehsalın böyüməsinə təkan verən əsas amillərdən hesab olunur. Bu səbəbdən də infrastrukturun ahəngdar və normal fəaliyyətini təmin etmək zəruridir.

Respublikanın neft sənayesinə xidmət göstərən istehsal infrastrukturu xarici investisiyalar və qabaqcıl texnologiyaların tətbiqi hesabına nisbətən inkişaf etmiş, aqrar sahədə mövcud istehsal infrastrukturu maliyyə resurslarının çatışmazlığı səbəbindən ləngimişdir. Bu istiqamətdə investisiyaların cəlb edilməsi aktual məsələlərdəndir.

Bazar iqtisadi sisteminə keçid şəraitində respublika iqtisadiyyatının hərtərəfli inkişafina nail olmaq üçün infrastrukturun bütün sahələri ilə yanaşı, istehsal infrastrukturunun da inkişafi nəzərdə tutulmalıdır. Beynəlxalq təcrübə göstərir ki, təkcə maddi istehsalın inkişafina yönəlmiş birtərəfli tədbirlər istənilən nəticəni vermir. İEÖ ölkələr kənd təsərrüfatında, sənayedə, tikintidə inkişafa, ilk növbədə istehsal xidmətləri bazarının genişlənməsinə və burada rəqabətin inkişafina nail olublar. Çünki maddi istehsal sahəsində böhranın səbəblərindən biri istehsal xidmətlərinin inkişaf səviyyəsinin maddi istehsalın tələblərinə cavab verməməsi idi. Məsələn, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin zəif olmasının əsas səbəblərindən biri istehsalçı və istehlakçıları birləşdirən informasiya sisteminin olmaması, soyuducu avadanlıqların istifadəsi əsasında saxlama sistemlərinin inkişaf

etdirilməməsi, emal sənayesində rəqabətin aşağı səviyyədə olmasıdır. Ona görə də bu sahədə istehsal və xidmət sahələrinin yaradılması, bu sahələrin inkişafi üçün qanunvericilik bazasının və stimullaşdırıcı mexanizmin yaradılması vacibdir.

Bu gün dövlətin əsas məqsədi Qarabağda həyatı bərpa etmək, erməni terroruna məruz qalmış ərazilərimizi tez bir zamanda əlverişli vəziyyətə gətirməkdir. Qarabağın tərkib hissəsi olan rayonlarımızın iqtisadi fəaliyyətinin strukturu çoxşaxəlidir və güclü resurs potensialına malikdir. Regionda çevik və daha intensiv şəkildə infrastruktur obyektləri şəbəkəsinin yaradılması günün tələbidir. Regionun iqtisadiyyatının bərpasında ilk öncə istehsal infrastrukturunun qurulması mühüm əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş Qarabağda sənaye infrastrukturunun qurulması istiqamətində görülən işlər ilk növbədə yol və elektrik təsərrüfatı sahəsinə aiddir. Bu ərazilərdə infrastrukturun yaradılması regionda digər sosial-iqtisadi layihələrin həyata keçirilməsində mühüm amildir. Bərpa prosesinin qarşısında duran digər mühüm vəzifələrdən biri isə işğaldan azad olunmuş bölgələrdə enerji infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təminatıdır.

İşğaldan azad edilmiş ərazilərin bərpası üçün ilk addımlar nəqliyyat infrastrukturunun qurulması oldu. Qarabağın dirçəlişinə aparan "Böyük Qayıdış" proqramının ilkin mərhələsi işğal olunmuş bölgələrdə yeni yol-nəqliyyat infrastrukturunun formalaşdırılmasıdır. Həyata keçirilən nəqliyyat layihələri Qarabağa şimaldan, cənubdan və şərqdən köçməyə imkan verəcək.

Yeni iqtisadi rayonlaşma nəticəsində Ağcabədi və Bərdə rayonlarının iqtisadi rayonun tərkibinə daxil edilməsi regionun inkişafina xüsusi töhfə verəcəkdir.

Qarabağ regionu üçün ən vacib strateji vəzifələrdən biri də sosial sahənin və sosial infrastrukturun məqsədyönlü inkişafidır. Çünki bu, insanların yaşaması üçün əlverişli şərait yaratmağı, əhalinin maddi və mənəvi ehtiyaclarının ödənilməsini, insanlar üçün yaşayış rahatlığını, regionun əhali və biznes üçün cəlbediciliyini təmin edir. Sosial infrastruktur əhalinin həyat səviyyəsini və müəyyən bir ərazidə yaşayan insan resurslarının keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Regiondakı sosial gərginliyin azaldılmasına və ərazinin əmək potensialının inkişafina kömək edir.

Regionun sosial infrastrukturunun inkişaf xüsusiyyətləri nəzərə alınarkən əhalinin sosial infrastruktur xidmətlərinə ehtiyacları xüsusilə nəzərə alınmalıdır. Bu regiona yeni köçürüləcək əhali qruplarının sosial tərkibi təhlil edilməlidir. Regionda sosial xidmətlərin təşkilinə xüsusi önəm verilməlidir. Turizm infrastrukturu bu bölgənin zəngin tairixi, mədəniyyət ocaqları, zəngin təbiəti ilə sıx bağlı olaraq inkişaf etdirilməlidir.

Regionun bərpa işlərində ümumi infrastrukturun (yol, su, qaz, işıq, telekommunikasiya) və vacib yaşayış şəraitinin yaradılmasından başlamalı, sonra isə iqtisadi inkişaf layihələrinə keçilməlidir. Bu yolla yerli istehsalın, kənd təsərrüfatı məhsullarının emalının və ticarətin inkişafı üçün mövcud dəstək və təşviq siyasəti həyata keçirilməli, azad edilmiş ərazinin qeyd olunan sahələri birinci növbədə bərpa edilməlidir.

Azad olunmuş rayonların yüksək aqrar-sənaye yönümlü inkişaf potensialını nəzərə alaraq məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə həmin regionlarda vacib sosial struktur rolunu oynayan istehlak kooperasiyası sisteminin dirçəldilməsi məqsədəuyğun hesab oluna bilər. İstehlak kooperasiyasının missiyası (məramı) azad olunmuş rayonlarda və ilk növbədə, kənd yerlərində sosial infrastrukturun inkişaf etdirilməsindən, istehlak malları bazarının sabit inkişafını təmin etməkdən ibarət olmalıdır. Sahənin effektiv inkişafının təmin etdirilməsi istiqamətlərindən biri kimi yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə elektron kommersiyanın inkişafını əsaslandıran infrastruktur elementlərinin, həmçinin elektron ödəniş sistemlərinin tətbiqi mexanizmlərinin formalaşdırılması kimi perspektiv strategiyalar qəbul edilməlidir.

Beləliklə, regionun infrastrukturunun aşağıdakı istiqamətlər üzrə qurulması və inkişafi məqsədəuyğundur:

- yeni su və istilik elektrik stansiyalarının tikintisi, mövcud enerji bloklarının modernləşdirilməsinin davam etdirilməsi;
- qaz verilməsinin yaxşılaşdırılması, müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, istilik sistemlərinin tikintisi, mövcud olan istilik sistemlərinin bərpa edilməsi, yenidən qurulması və modernləşdirilməsi;

- nəqliyyat sisteminin davamlı inkişafı, nəqliyyat sənayesinin, habelə nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin daha da təkmilləşdirilməsi;
- regionun enerji sistemində yeni qüvvələrin yaradılması, yeni ötürücü şəbəkələrin və stansiyaların tikintisi və təzədən qurulması üzrə işlərin davam etdirilməsi;
- regionda rayonlararası, rayondaxili və şəhər yol-nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsi, avtomobil yollarının, xüsusilə kənd yollarının tikintisi və yenidən qurulması ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- kanalizasiya sisteminin və su təchizatı yenidən qurulması və təkmilləşdirilməsi;
- bərpa olunan və alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi;
üzrə tədbirlərin davam etdirilməsi;
- köçüləcək əhalinin səhiyyə, təhsil, mədəniyyət ocaqlarına və sosial xidmətlərə çıxışının təmin edilməsi üzrə infrastrukturların yaradılması;
- "regionda inkişaf etmiş informasiya-kommunikasiya infrastrukturunun yaradılması";
- regionda İKT sahəsində təlim və bilik səviyyəsinin artırılması;
- informasiya-kommunikasiya xidmətlərinin daha da genişləndirilməsi;
- "regionda televiziya yayımının keyfiyyətinin daha da yüksəldilməsi".

Respublikamızın işğaldan azad olunan regionlarnda infrastruktur sistemlərinin bərpası, yenidən qurulması və inkişafı üzrə xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də dövlət-özəl sektor münasibətlərinin qurulmasıdır. İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə əsaslanmalı, dövlət-özəl tərəfdaşlığı gücləndirilməlidir. Dövlət vəsaitlərinə qənaət və investisiyaların səmərəliliyinin artırılması məqsədilə müxtəlif sahələrdə dövlət-özəl tərəfdaşlığından istifadə edilməli, xüsusi güzəştli iqtisadi rejimin tətbiqi həyata keçirilməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət proqramının təsdiq edilməsi barədə “Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014- cü il tarixli Sərəncamı”
2. Abdullayev K.N. (2020), “Müasir iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətləri // İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmipraktiki konfransın materialları”. Sumqayıt: SDU nəşr., 8-9 iyul, s. 455-459
3. Abdullayev K.N. (2020), “Müasir iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətləri // İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmi-praktiki konfransın materialları”. Sumqayıt: SDU nəşr., 8-9 iyul, s. 455-459
4. Atakişiyev M. (2018) “Azərbaycan 2020: milli iqtisadi inkişaf və səmərəli yüksəliş problemləri”, Azərbaycan Vergi jurnalı, Bakı, səh 135-146
5. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir”. https://president.az/articles/50474.
6. “Azərbaycan Respublikası Ekologiya və sərvətlər nazirliyinin məlumat materialları əsasında erməni silahlı təcavüzü və işğalı nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi”. Bakı: Elm və təhsil nəşriyyatı, 2015, 252 s.
7. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafina dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı”. http://www.e qanun.az/alpidata/framework/data/O/f_899.html.
8. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu”. Bakı şəhəri, 29 dekabr 2020-ci il. https://president.az/articles/49859.
9. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Statistik məcmuə. 2020, 235 s.

10. Azərbaycanda nəqliyyat. Statistik məcmuə. Bakı, 2020, 86 s.
11. Azərbaycanın regionları. DSK. Statistik məcmuə. Bakı, 2020, 826 s.
12. Azərbaycanın statistik göstəriciləri, Statistik məcmuə, Bakı, Səda, 2021. 346 s.
13. Bağırov O. (2021), Məqalə / "Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri", 9 s.
14. Cəbiyev R.M. (2000), "Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafi", Bakı, AzTU, 234 s.
15. Əliyev Ş.T. (2012), "Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafi Fondu", 360 s.
16. Əliyev Ş.T. (2015), "Milli iqtisadiyyatın inkişafinın sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər" // Audit, № 4, s.73-79.
17. Əliyev T. (2022), "İşğaldan azad olunmuş ərazilərdə kommunikasiya problemlərinin həlli yolları". UNECEXPERT "Qarabağ Azərbaycandır". Səh 30-33
18. Əliyeva A.Ə. (2019), "Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri" // Bakı: AMEA-nın Xəbərləri (İqtisadiyyat seriyası ), №1, s. 101-108
19. Həsənov R.T. (1998), "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafinın bazar modelinin yaradılmasının konseptual əsasları". Bakı, "Elm", 343 s.
20. Həsənov T.G. (2002), "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri". Bakı: Çaşoğlu, 122 s.
21. Həsənov T.G. (2012), "İqtisadi-coğrafi rayonlaşdırma". Bakı: Bakı Universitetinin nəşriyyatı, 245 s.
22. İbrahimov İ.H. (2016), "Aqrar sahənin iqtisadiyyatı". (Monoqrafiya). Bakı, 655s.
23. "İnnovasiya fəaliyyəti subyektləri: texnoparklar, sənaye parkları. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri". Elmi Əsərlər Toplusunun Bülleteni. (2018), 44 s.
24. "İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf perspektivləri mövzusunda elmi-praktik konfrans". ADAU 26.11.2020.

http://adau.edu.az/az/news/939/isaldan-azad-olunmuserazilerde-aqrar-sahenin-inkisaf-perspektivleri-mvzusunda-elmi-praktik-konfrans/.

25. Kərimli İ. (2022), “Qarabağ regionunun nəqliyyat loqistika əlaqələri və beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulma imkanları”. UNECEXPERT “Qarabağ Azərbaycandır”. Səh 21-22
26. Mahmudov M., Mahmudova M. (2011), “Regionların sosial-iqtisadi inkişafının tənzimlənməs”i. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 370 s.
27. Mehdiyev R. (2005), “Azərbaycan: Qloballaşma dövrünün tələbləri”, XXI əsr., 464 s.
28. Məmmədov Z.S. (2007), “Regionların iqtisadi inkişaf problemləri”, Bakı, 465 s.
29. Mirzəyev A., Eminov A., Süleymanov E., Qocayeva E. (2009), “Müasir Azərbaycan iqtisadiyyatının əsasları”. Bakı, 440 s.
30. Musayev V. (2017), “Milli İqtisadiyyat və İqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”, Bakı İqtisadi İslahatlar icmalı, Bakı, 47 s.
31. Musayeva S.F. (2019), “Azərbaycanda klaster institutunun inkişafının strateji istiqamətləri” // Geostrategiya jurnalı, 6 (54), s.141-145.
32. Mustafayeva G.Ə. (2018), “Bazar infrastrukturu”: dərs vəsaiti / G.Mustafayeva, S.Məmmədova; elmi red. G.Ə.Gənciyev. Bakı: Kooperasiya, 359 s.
33. Müzəffərli N., İsmayılov E. (2010), “Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar”. Bakı: Qafqaz nəşriyyat evi, 270 s.
34. Rəhmanov F.P. (2004), “Sosial infrastrukturun tənzimlənməsi problemləri”. Bakı, Gənclik, 289 səh.
35. Şəkərəliyev A.Ş. (2009), “Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər”. 415 s.
36. Vəliyev A.H. (2019), “Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin hüquqi-iqtisadi aspektləri”. Bakı: 386 s.
37. Vəliyev T.S. (2000), “İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti”, Bakı, 367s.

**Rus dilində**


1. Герасенко В.П. (2016), “Региональная инвестиционная политика. Экономика и управление”, Выпуск 29(1), с.65-72
2. Гиринский, А. В. (2019), “Сущностные аспекты инвестиционной политики регионов. Молодой ученый”, № 10 (248), с. 98-100.
3. Дубынина А.В. (2013), “Проблемы инновационного развития экономики на региональном уровне. Социум и власть”, № 4 (42), с.84-89
4. Зимин А.И. (2013), “Инвестиции в инфраструктуру: тенденции, проблемы, перспективы”. Виттевские чтения, №1, с. 9- 18
5. Зозулич М.Ф., Хаханов С.В. (2017), “Организационно-экономические механизмы развития инновационной инфраструктуры региона. Инновации”, № 2 (220), с.81-85
6. Иванова Н.А. (2014), “Классификация объектов региональной инфраструктуры. Современные наукоемкие технологии. Региональное приложение”, №1 (37), с.38-43.
7. Калинин В.В. (2011), “Основные направления развития инфраструктуры промышленного комплекса региона. Стратегия развития региона”, 35 (218), с.34-37
8. Камилов М.К., Камилова П.Д., Камилова З.М. (2014), “Региональные проблемы преобразования экономики”, №7, с.92-97
9. Коваленко Е.Г. (2005), “Региональная экономика и управление. СПб.: Питер”, Учебноепособие, 288 с.
10. Кормнов Ю. (2006), “О повышении конкурентоспособности экономики. Экономист”, №8, с. 13–20
11. Корчагин П.В. (2011), “Особенности современного инновационного развития и формирование региональной инновационной системы. Проблемы современной экономики”, N 1 (37), с. 205–208
12. Котилько В.В. (2001), “Региональная экономическая политика”, М., 272 с
13. Кузменко Ю.Г., Грейз Г.М., Калентеев С.В. (2013), “Транспортно-логистическая система как субъект социально-экономического развития

региона”. Известия УрГЭУ 2(46), с.111- 118
14. Пыхов П. А., Кашина Т. О. (2016), “Инфраструктура как объект экономических исследований” // Журнал экономической теории. № 1. – С. 39–46.
15. Рамазанова Д.Р. (2017), “Проблемы формирования, функционирования и развития социальной инфраструктуры региона. Региональные проблемы преобразования экономики”, №12, с.36-44
16. Самогородская М.И. (2002), “Разработка региональной инвестиционной стратегии. Региональная экономика: теория и практика”, 2(2), с.46-52
17. Самуэльсон П., (1992) “Экономика”. с. 472.
18. Смирнова О.А. (2013), “Функциональный анализ инфраструктуры региона: методология и апробация. Современные наукоемкие технологии. Региональное приложение”, №3, с. 79-84
19. Смирнова О.А. (2014), “Социальная инфраструктура региона: сущность, проблемы и перспективы развития. Современные наукоемкие технологии. Региональное приложение”, №2(38), с. 87-91
20. Смит А. (1962), “Исследование о природе и причинах богатства народов”: монография / А. Смит. – Москва: Прогресс, 654 с.
21. Шихалибейли Э.Ш. и др. (2018), “Геология и полезные ископаемые Нагорного Карабаха”. Баку: «Елм», 210 с.

**İngilis dilində**

1. Douglas S., Sonia A., Balázs É., Tomasz K. (2009), “Infrastructure investment: links to growth and the role of public policies”. Economics Department Working Paper No. 686 ECO/WKP 27.
2. Hirschman A. O. (2008), “Strategy of economic development – New Haven”: Yale University Press, 230 p.
3. McConnell K. G. (2000), İqtisadiyyat. Kitab 1: “Prinsiplər, Problemlər və Siyasət” / K. G. McConnell, S. L. Brew; başına. ingilis dilindən. 13-cü nəşr. - M.: In-fra-M, 454 s.

4. Nurkse R. (2007), “Problems of capital formation in undeveloped countries” / Oxford: University Press, P. 45–97.

**İnternet resursları**

1. Azad olunmuş ərazilərin turizm potensialı çox güclüdür. 12 noyabr 2020. https://vergiler.az/news/economy/10815.html.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/articles/50474.
3. Dadaşov Ə.Ə. İşğaldan azad olunmuş Ağdamın aqrar potensialı. 2020. URL: https://azertag.az/xeber/Isgaldan_azad_olunmus_Agdamin_aqrar_potensiali_TAHLIL-1695189
4. Dadaşov Ə.Ə. İşğaldan azad olunmuş Füzulinin aqrar potensialı. 2020. URL: https://azertag.az/xeber/Isgaldanazadolunmus_Fuzuli_rayonunun_aqrar_potensiali TAHLIL-1706815
5. Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə statistik məlumat bazası. 2020. URL: https://www.stat.gov.az/source/agriculture/
6. Əliqızı Ş. İşğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. 6 dekabr 2020. https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var.
7. Əliyev T.N. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın inkişaf istiqamətləri. 28.12.2020. http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/2030- azaerbaydzan-n-ishzhhaldan-azad-edilaen-aerazilaerindae-sahibkarl-zhh-n-inkishafstizhamaetlaeri.html.
8. İlham Əliyev: Qarabağı Azərbaycanın ən inkişaf etmiş məkanına çevirəcək. http://www.azerbaijan-news.az/view-202021/ilham-eliyev-qarabagi-azerbaycanin-eninkisaf-etmis-mekanina-cevirecek.
9. İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf perspektivləri mövzusunda elmi-praktik konfrans. ADAU 26.11.2020.

http://adau.edu.az/az/news/939/isaldan-azad-olunmus-erazilerde-aqrar-sahenin-inkisaf-perspektivleri-mvzusunda-elmi-praktik-konfrans/.

10. Qarabağda aqrar sahə də inkişaf edəcək. 12 Noyabr 2020. http://sosium.az/39900-2/.
11. Qarabağın iqtisadi inkişafi bu cür aparılacaq: Sənaye şəhərcikləri və aqrostrukturlar yaratmaqla. 18 Noyabr 2020. https://publika.az/news/qarabag/336138.html.
12. Musayev A., Zeynalov A. Qarabağın bərpası və inkişafi prosesində xarici dəstək mühüm amildir. 27.01.2021. http://www.science.gov.az/news/open/15789.
13. Torpaqlarımızın işğaldan azad olunması aqrar sahənin inkişafını daha da sürətləndirəcək. 06 Noyabr 2020. http://www.yap.org.az/az/view/interview/1048/torpaqlarimizin-ishgaldan-azad-olunmasi-aqrar-sahenin-inkishafini-daha-da-suretlendirecek#.
14. Vüsal Qasımlı: Qarabağın böyük iqtisadi potensialı var. 21.10.2020. http://www.azerbaijan-news.az/view-201766/vusal-qasimli-qarabagin-boyuk-iqtisadi-potensiali-var.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Qarabağ regionun (yeni iqtisadi rayon üzrə) münaqişə nəticəsində1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı..........................................................................31
**Cədvəl 2:** Bərdə və Ağcabədi rayonları üzrə sənaye göstəriciləri...............................................40
**Cədvəl 3:** Qarabağ iqtisadi rayonu üzrə sosial infrastruktur göstəriciləri....................................42
**Cədvəl 4:** Qarabağda sosial infrastrukturun bərpası istiqamətlərinə tələb olunan vəsaitlər.........43

## Sxemlərin siyahısı

**Sxem 1:** Regionun sosial infrastrukturunun inkişaf istiqamətləri................................................46